9 iyun 2023 №43 (2012)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının iclası olacaq

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 8-də Soçiyə işgüzar səfəri çərçivəsində Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustinlə görüşüb. Görüşdə iki ölkənin qarşılıqlı münasibətlərinin Azərbaycan və Rusiya prezidentlərinin səyləri ilə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi məmnunluqla vurğulanıb.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın iyunun sonunda Moskvada keçirilməsi planlaşdırılan növbəti iclasının əhəmiyyəti qeyd edilib.

Hökumət başçıları Azərbaycan-Rusiya ticarət-iqtisadi əməkdaşlığının aktual məsələlərini və müxtəlif sahələrdə birgə layihələrin reallaşdırılmasını da nəzərdən keçiriblər.

## "Qarabağ müharibədən sonra" fransız fotoqrafın obyektivində



Avropa Parlamentinin Altiero Spinelli binasında (Brüssel) Azərbaycan Respublikasının Belçikadakı Səfirliyinin təşkilatçılığı ilə fransız fotoqraf Qreqori Herpenin "Qarabağ müharibədən sonra" adlı fotosərgisi açılıb.

Qreqori Herpe 2021-2022-ci illərdə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi və Parisdə fəaliyyət göstərən Azərbaycanın Dostları Assosiasiyasının təşkilatçılığı ilə ölkəmizin Qarabağ bölgəsində olub. Fotoqrafın otuzillik erməni işğalı nəticəsində dağıdılmış tarixi və mədəni irs nümunələrimiz, işğaldan sonra aparılan bərpa və minatəmizləmə işləri ilə bağlı çəkdiyi şəkillərin bir qismi 2021-ci ildə ölkəmizin Parisdəki səfirliyində nümayiş etdirilmişdi.

davamı səh. 8-də

## TÜRKSOY-un təşəbbüsü ilə "Türk Dünyası Kulinariya Birliyi" yaradılıb



Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tərəfindən Qırğızıstanda Tyan-Şan dağının Çunkurçak yaylasında 1-ci "Supara: Türk Xalqlarının Ənənəvi Mətbəxi Etno Festivalı" keçirilib. TÜRKSOY, Qırğızıstan Mədəniyyət, İnformasiya, İdman və Gənclər Nazirliyinin birgə təşkilatçılığı və Supara Etno Kompleksinin ev sahibliyi ilə keçirilən festivalda Qırğızıstan, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkiyə, Macarıstan və Şimali Makedoniyadan aşpazlar iştirak ediblər.

Festivalın açılışında çıxış edən TÜRKSOY-un baş katibi Sultan Raev süfrənin türk xalqları arasında yeri və əhəmiyyətinə diqqət çəkib: "Keçmişdə türk xalqları süfrə arxasında tanış olub, qohumluq əlaqələri qurub, birliklərini möhkəmləndiriblər. Hər bir xalq öz mətbəxi ilə fəxr edir və bu gün dünya mətbəxi süfrələrimizdə yer alır. Bu festivalı keçirməkdə məqsədimiz Türk dünyasının unudulmuş ənənəvi yeməklərini də canlandırmaq və fəlsəfəsini izah etməkdir".

Baş katib festivalı "supara" (süfrə) adlandırdıqlarını və Türk dünyası xalqları arasında bu sözün, demək olar ki, eyni məna daşıdığını da bildirib.

S.Raev bir yeniliyi də diqqətə çatdırıb. Deyib ki, festival çərçivəsində TÜRKSOY-un təşəbbüsü və təşkilatçılığı ilə "Türk Dünyası Kulinariya Birliyi" qurulub. Türk xalqlarının kulinariya mədəniyyətini təbliğ etmək məqsədilə yaradılmış birliyin prezidenti vəzifəsinə Azərbaycan Milli Kulinariya Assosiasiyasının rəhbəri professor Tahir Əmiraslanov seçilib. Tədbir çərçivəsində T.Əmiraslanovun ötən il işıq üzü görmüş "Qarabağ mətbəxinin inciləri" kitabının təqdimatı da keçirilib.

Türk dünyasının kulinariya mədəniyyətinin müxtəlif nümunələrinin nümayiş olunduğu stendlərə baş çəkən münsiflər heyətinin üzvləri yemək və içkilərin dadına baxıb, hazırlanmış xörəklərin tarixi haqqında məlumat alıblar. Böyük iştirakçı kütləsi ilə müşayiət olunan, aşıqların, rəqs qruplarının səhnə aldığı festivalın sonunda aşpazlara müxtəlif hədiyyələr verilib.

"Türk Xalqlarının Ənənəvi Mətbəxi Etno Festivalı" gələn il Özbəkistanda keçiriləcək.

## Otuz il əvvəl bu gün...

### "Başa düşürdüm ki, hökmən getməliyəm, çünki xalqın taleyi həll olunurdu..."

Azərbaycanın yeni tarixində 1993-cü ilin iyunu bütün mənalarda taleyüklü bir yolayrıcı idi. Siyasətdə səbatsızlar, idarəçilikdə naşılar üzündən Azərbaycan elə bir yolayrıcına gəlib çıxmışdı ki, bundan sonra ya kənarında olduğu uçuruma yuvarlanaraq dövlət kimi məhv olacaq, ya da bu uçurumdan uzaqlaşıb xilas yoluna çıxacaqdı. Tale Azərbaycana ikincini qismət etdi.



9 iyun 1993-cü il. Beş gün öncə Gəncədə baş verən olaylardan sonra hakimiyyət böhranı kritik həddə çatıb, ölkə faktiki idarəolunmaz hala gəlib. Azərbaycan Ordusunun keçmiş korpus komandiri Surət Hüseynovun başçılıq etdiyi qiyamçı hərbi qüvvələrlə hökumət qüvvələri arasında Gəncədə meydana gələn toqquşmanın rezonansı ölkəni günbəgün, saatbasaat vətəndaş müharibəsinə doğru götürməkdə idi.

Faktiki iflas etmiş Xalq Cəbhəsi iqtidarı artıq bir neçə gündür Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevə müraciət edərək onu Bakıya çağırırdı. Heydər Əliyev iyunun 9-da onun üçün məxsusi olaraq göndərilən təyyarə ilə Bakıya gəldi...

Bir müddət sonra Heydər Əliyev müsahibələrindən birində bu barədə demişdi: "Bakıdan yanıma tez-tez adamlar gəlir, dilə tuturdular ki, siyasətə qayıdım. Lakin mən istəmirdim. Xalq Cəbhəsinin siyasətinə qoşulmaq istəmirdim. Çünki bu siyasət fəlakətə doğru aparırdı... Xalq Cəbhəsi gördü ki, işlər fənadır, sonları çatmaqdadır və xalq onları sadəcə olaraq didib-dağıdacaqdır. Buna görə də Elçibəy məni çağırmağı qərara aldı ki, vəziyyəti xilas edim. O, Naxçıvana mənə zəng vururdu, lakin mən dəstəyi götürmürdüm. O, yenə zəng vurdu. Mən dəstəyi yenə də götürmədim. İyunun 7-də onlar Bakıdan mənə təyyarə göndərdilər. Mən təyyarəni geri qaytartdırdım. İyunun 8-də onlar təzədən təyyarə göndərdilər. Mən Elçibəylə telefonla danışdım və Bakıya getməkdən imtina etdim. İyunun 9-da Surətin qoşunları Bakının 100 kilometrliyində idi. Elçibəy yenidən mənə təyyarə göndərdi. Yalvarıb-yaxardı ki, Bakıya gəlim, mən razılaşdım. Nə gizlədim, oraya gedib fəlakətli vəziyyəti görməyə qorxurdum, buna baxmayaraq, başa düşürdüm ki, hökmən getməliyəm, çünki xalqın taleyi həll olunurdu.

Başa düşəndə ki, xalqım vətəndaş müharibəsi həddindədir, onda mən buraya gəldim. Vətəndaş müharibəsi isə xalqın məhv olması, dövlətin sonu deməkdir... Odur ki, gəlməyə bilməzdim. Təkrar edirəm: Mən buraya tək, ürəyimin hökmü ilə gəldim ki, xalqıma ən dəhşətli fəlakətdən yaxa qurtarmaqda kömək edim...".

Qarşıda Azərbaycanın xilası üçün, istiqlalı və istiqbalı naminə tarixə yazılacaq çətin, ağır, amma sonunda işıq olan bir yol var idi...

## "Azərbaycan memarlıq elementləri" kitabının təqdimatı

İyunun 8-də Mədəniyyət Nazirliyi, Azərbaycan Memarlar İttifaqı və Azərbaycan Milli Kitabxanasının birgə layihəsi olaraq nəşr edilən "Azərbaycan memarlıq elementləri" kitabının təqdimatı olub.

Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə ithaf olunmuş nəşrin təqdimat mərasimi Azərbaycan Milli İncəsənət Muzeyində keçirilib.

Kitabın müəllifi Əməkdar memar, memarlıq üzrə fəlsəfə doktoru Xəlil Cəfərovdur.

Milli Kitabxananın direktoru professor Kərim Tahirov giriş sözündə XX əsrin ortalarında görkəmli Azərbaycan memarı akademik Mikayıl Hüseynov tərəfindən ilk dəfə olaraq milli memarlıq abidələrinin araşdırıldığını, bu təşəbbüslə həmin dövrdə tədqiqatçılar tərəfindən müxtəlif abidələrə aid materialların toplandığını və məhdud nüsxədə bir neçə albomun çap olunduğunu diqqətə çatdırıb.



Qeyd edilib ki, yarımçıq qalmış həmin işə yarım əsr sonra yenidən başlanılıb, nəticədə sanballı bir kitab ortaya qoyulub.

davamı səh. 2-də

## Azad torpaqların dirçəlişinə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi də töhfə vermək istəyir

*Bütün gövhərlərin*
*rəngi parlaqdır,*
*Hamısından xoş gələn*
*yenə torpaqdır... –*

deyirdi səkkiz əsr öncə Azərbaycanın dünyaya bəxş etdiyi dahi Nizami Gəncəvi. Mütəfəkkir şairin doğma yurdunun otuz il yağı tapdağında qalmış torpaqları bu gün dirçəlir, yenidən qurulur, eyni zamanda dünyaya sülh, tərəqqi, əməkdaşlıq mesajları ünvanlayır.

Nizami irsinin ümumbəşəri dəyərləri işığında bir araya gələn dünyanın tanınmış insanları da beynəlxalq birliyin diqqətini Azərbaycanın sülhpərvər siyasətinə, dinc yanaşı yaşama niyyətinə çəkmək üçün bu prosesə töhfə vermək istəyirlər.



***

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə iyunun 7-də Şuşada "Yenidənqurma, sülh və inteqrasiya: enerji, iqtisadiyyat, ətraf mühit və kapital" mövzusunda beynəlxalq tədbir keçirilib. Tədbirdə müxtəlif ölkələrdən 30-dan çox nümayəndə iştirak edib.

Açılış mərasimində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən hazırlanan və Azərbaycanın işğaldan azad edilmiş torpaqlarının bərpası prosesindən bəhs edən videoçarx nümayiş olunub.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin və Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov açılış nitqi ilə çıxış ediblər. Prezidentin xüsusi nümayəndəsi azad olunmuş torpaqlarda görülən işlərdən bəhs edib, bu istiqamətdə müxtəlif işçi qruplarının fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

davamı səh. 3-də

## Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı davam edir



5-11 iyun tarixlərində paytaxtın Hüseyn Cavid prospektində, AMEA-nın binasının önündəki parkda II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı keçirilir.

Festivalda 50-dən çox nəşriyyat, 30-a yaxın xarici ölkə nümayəndəsi iştirak edir, həmçinin müxtəlif sahələrə dair nəşrlər, eləcə də rəngkarlıq və qrafika sənəti üzrə əl işləri təqdim olunur.

Festival çərçivəsində iyunun 8-də (Türkiyə günü) bir sıra tədbirlər keçirilib.

səh. 2

## "Göydə bircə ovuc tüstüsü qaldı"...

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) təşkilatçılığı ilə reallaşan "Qonaq teatr" layihəsində bu dəfə Şəki Dövlət Dram Teatrı paytaxtda sənətsevərlərlə görüşüb. Yaradıcı kollektiv iyunun 5-də ATXİ-nin səhnəsində türk yazar Toyğun Orbayın "21:15 qatarı" pyesinin tamaşasını təqdim edib.

Bir neçə il əvvəl Əməkdar incəsənət xadimi Bəhram Osmanovun quruluşunda Akademik Milli Dram Teatrında uğurlu səhnə ömrü yaşayan bu əsər ümumən həyat və ölüm haqqında düşüncələrin ifadəsi kimi oyunçudan da, tamaşaçıdan da bir anlamda "ruhundan ayrılmağı" tələb edir. Qəhrəmanın da dediyi kimi, "içiboş cismə tamaşa üçün". Onu da qeyd edim ki, ixtisasca beyin cərrahı olan müəllifin 2002-ci ildə qələmə aldığı pyes Türkiyənin bir neçə teatrında, eləcə də ölkəmizlə yanaşı, Fransa və İngiltərədə səhnəyə qoyulub.

davamı səh. 4-də

### İkinci Bakı Beynəlxalq Piano Festivalı keçiriləcək




səh. 2

### "İnsan hüquqları aylığı" çərçivəsində bölgələrdə müxtəlif tədbirlər təşkil olunur

səh. 4



### Sankt-Peterburqda Azərbaycanla dostluq konserti

səh. 8

# Xalqlar arasında dostluğun möhkəmlənməsi üçün humanitar əməkdaşlıq vacibdir




İyunun 8-də Rusiya Federasiyasının Soçi şəhərində MDB Hökumət Başçıları Şurasının iclası keçirilib. Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iclasda iştirak edib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, iclasdan əvvəl nümayəndə heyətlərinin başçıları "Sirius" elm və incəsənət parkında "Avrasiya bizim evimizdir" adlı sərgi ilə tanış olublar.

Şuranın məhdud tərkibli iclasında çıxış edən Əli Əsədov Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlərin keçirildiyini MDB ölkələrinin hökumət başçılarına bildirib. Qeyd olunub ki, Azərbaycan Respublikası MDB çərçivəsində hökumətlər səviyyəsində qarşılıqlı faydalı tərəfdaşlığa və səmərəli əlaqələrin davam etdirilməsinə böyük əhəmiyyət verir.

Birliyə üzv dövlətlər arasında qarşılıqlı anlaşmanın və mehriban qonşuluğun möhkəmləndirilməsində humanitar sahənin başlıca rolu vurğulanıb. Baş nazir bu xüsusda MDB Oyunlarına toxunaraq bildirib ki, bu Oyunlar humanitar sahədə mühüm idman layihəsi kimi iştirakçı ölkələrin xalqları arasında ənənəvi dostluq əlaqələrinin möhkəmlənməsinə kömək edir.

Üçüncü MDB Oyunlarının 2025-ci ildə ölkəmizdə keçiriləcəyini xatırladan Əli Əsədov Azərbaycanın birinci Avropa Oyunları (2015), IV İslam Həmrəyliyi Oyunları (2017), Avropa Gənclər Yay Olimpiya Festivalı (2019), UEFA çərçivəsində klub və milli yarışların, Formula 1 Qran-priləri kimi nüfuzlu idman yarışlarının keçirilməsi təcrübəsindən danışıb.

"Biz müasir idman, logistika və turizm infrastrukturuna, kifayət qədər kadr potensialına sahibik. Bütün bu resurslar Azərbaycan dövlətinin bütün iştirakçılara və nümayəndələrə verdiyi tam təhlükəsizlik zəmanəti ilə birlikdə yarışların uğurla və yüksək səviyyədə keçəcəyini deməyə əsas verir", – deyə o əlavə edib.

Qeyd olunub ki, Azərbaycan MDB-nin iştirakçı dövlətlərinin, demək olar ki, hamısı ilə ikitərəfli əsasda sıx iqtisadi-ticari əlaqələr saxlayır və bu əlaqələr getdikcə genişlənir.

Baş nazir deyib: "2022-ci ilin yekunlarına görə, Azərbaycanın MDB-yə üzv ölkələrlə ticarət dövriyyəsinin ümumi həcmi 28 faizdən çox artıb. Müsbət dinamika cari ildə də müşahidə olunur. İlk dörd ayda biz qarşılıqlı ticarəti 22 faiz artırmağa nail olmuşuq".

Mövcud qlobal geosiyasi çağırışlar fonunda nəqliyyat-tranzit sahəsində əməkdaşlığın aktuallığının artdığı qeyd olunub. Bildirib ki, Azərbaycan regionda əsas nəqliyyat qovşağı kimi nəqliyyat-logistika infrastrukturunu daim təkmilləşdirir və MDB üzrə tərəfdaşlarının ehtiyacları üçün yükdaşımaların artan həcmini təmin etməkdən ötrü öz potensialından daha intensiv istifadə etməyə hazırdır.

Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələrin açılmasının mühümlüyü qeyd edilib. Alternativ enerji mənbələri istiqamətində ölkəmizdə dünyanın aparıcı şirkətləri ilə birgə bir sıra iri layihələrin icra olunduğu bildirilib. Eyni zamanda Azərbaycanın "yaşıl enerji" gündəliyi məsələləri üzrə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi imkanlarını nəzərdən keçirməyə hazır olduğu diqqətə çatdırılıb.

İclas iştirakçıları regionda münaqişədən sonrakı vəziyyət barədə də məlumatlandırılıb. Qeyd olunub ki, sülh gündəliyinə sadiq qalan Azərbaycan regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi üzrə səyləri davam etdirmək əzmindədir. Azərbaycan işğaldan azad olunan ərazilərin bərpası və inkişafı istiqamətində genişmiqyaslı işlər həyata keçirir.

Məhdud tərkibli iclasdan sonra MDB Hökumət Başçıları Şurası işini geniş tərkibdə davam etdirib.

Sonda bir sıra sənədlər imzalanıb.

Qeyd edək ki, MDB Oyunları ilk dəfə 2021-ci ilin 4-11 sentyabrında Rusiya Federasiyasında – Tatarıstan Respublikasının Kazan şəhərində keçirilib.

Bu ideya 2018-ci ildə Rusiya tərəfindən irəli sürülüb və həmin il MDB Hökumət Başçıları Şurasının Düşənbədə (Tacikistan) keçirilən iclasında dəstəklənib. Oyunların iki ildən bir keçirilməsi qərara alınıb. I MDB Oyunları 2020-ci ilin sentyabrına nəzərdə tutulmuşdu, lakin pandemiya səbəbindən bir il ertələndi.

II MDB Oyunlarının 2023-cü ilin 3-15 avqustunda Belarusun paytaxtı Minskdə təşkili nəzərdə tutulub. İki il sonra isə MDB Oyunlarına Azərbaycan ev sahibliyi edəcək. Oyunlar 14-23 yaş arasında idmançıların iştirakı ilə 16 növ üzrə keçirilir.

# "Azərbaycan memarlıq elementləri" kitabının təqdimatı

*əvvəli səh. 1-də*





Bildirilib ki, təqdim olunan yeni kitab Azərbaycanın qədim tarixə malik olan memarlıq abidələrinin üzərində hələ minilliklər öncə əcdadlarımızın nəqş etdiyi milli memarlıq elementlərindən və onların etimologiyasından bəhs edir.

Kitabda XX əsrdə Azərbaycan memarlığının inkişafından da ətraflı söz açılır, memarlıq və arxitektura sahəsinin Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə xüsusilə diqqət mərkəzində olduğu vurğulanır.

Kitabın elmi redaktoru Əməkdar memar, professor, Azərbaycan Memarlar İttifaqının sədri Elbay Qasımzadə nəşri milli memarlıq üslubunun yaddaşlara həkk olunması üçün ən gözəl vasitə adlandırıb.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli təqdim olunan kitabda milli memarlıq üslubu, memarlıq janrları, interyer tərtibatı nümunələri, kiçik memarlıq formalarının ətraflı izah edildiyini söyləyib.

Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin rektoru memarlıq doktoru, professor Gülçöhrə Məmmədova, Milli Məclisin üzvü, akademik Nizami Cəfərov, Xalq yazıçısı Çingiz Abdullayev kitabla bağlı fikirlərini bölüşüblər.

Sonda Azərbaycan və ingilis dillərində olan kitabın müəllifi Əməkdar memar Xəlil Cəfərov çıxış edib. O, kitabın ərsəyə gəlməsindən söz açıb. Bildirib ki, kitabda Azərbaycan memarlığında işlənən milli elementləri həm funksional cəhətləri ilə, həm də bədii-estetik təsiri ilə tikililərdə sadəcə mühəndislik təxəyyülünün məhsulu kimi deyil, eyni zamanda incəsənət nümunəsi kimi nəzərdən keçirilib. Müasir memarlıq əsərlərində xalqımızın əsrlər boyu yaratdığı memarlıq irsini yaşatmaq və eyni zamanda bugünkü tələblərə uyğun şəkildə, düzgün istifadə etmək baxımından milli memarlıq elementlərini dərindən bilməyin vacibliyi önə çəkilib.

# Böyük Qayıdış: çadır düşərgələrindən azad yurd yerlərimizə uzanan yol

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə iyunun 8-də Beynəlxalq Muğam Mərkəzində Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə "Böyük Qayıdış: çadır düşərgələrindən başlayan yol" adlı tədbir keçirildi.

Tədbir iştirakçıları əvvəlcə Ulu öndərin 1993-2003-cü illərdə qaçqınlar və məcburi köçkünlərlə görüşlərini, didərginlik məhrumiyyətləri ilə üzləşmiş insanlara qayğısını, onların müvəqqəti məskunlaşdıqları yerlərə xarici qonaqlar və beynəlxalq təşkilatların nümayəndələri ilə birgə səfərlərini və s. əks etdirən fotosərgi ilə tanış oldular.





60-a yaxın fotoşəkildə Heydər Əliyevin xalqının ağrı-acılarına ürəkdən şərik olan, bunları yüngülləşdirmək və aradan qaldırmaq üçün fədakarlıqla çalışan, müharibədən əziyyət çəkən vətəndaşlara hərtərəfli qayğı göstərən, onlarda gələcəyə ümid, torpaqlarımızın işğaldan mütləq azad ediləcəyinə inam yaradan müdrik rəhbər, sevilən lider obrazı təcəssümünü tapıb.

Sonra Heydər Əliyevin qaçqın və məcburi köçkünlərlə iş sahəsində həyata keçirdiyi dövlət siyasətinin əks olunduğu film nümayiş etdirildi.

Şuşa, Kəlbəcər, Laçın və Cəbrayıl rayonlarından olan ziyalılar Ulu öndərlə bağlı xatirələrini bölüşdülər. 2020-ci ilin Vətən müharibəsindəki tarixi Zəfərdən sonra məcburi köçkün adından qurtulmağın qürurunu yaşadıqlarını bildirdilər.

Milli Məclisin deputatı akademik Rafael Hüseynov Ümummilli lider Heydər Əliyevin həyatı və dövlətçilik fəaliyyəti haqqında söz açdı, onun 1993-cü ildə hakimiyyətə qayıdışının Azərbaycanın müstəqilliyi və dövlətçiliyi üçün xilas olduğunu vurğuladı: "Millət üçün ən ali dəyər istiqlaldır. 1993-cü ildə qayıdışla Ulu öndər istiqlalımızı qorudu, dövlətimizin möhkəm təməlini yaratdı...".

Tədbir konsert proqramı ilə davam etdi. Xalq artistləri Mənsum İbrahimov, Aygün Bayramova, Nəzakət Teymurova, Əməkdar artistlər Almaz Orucova, Ehtiram Hüseynov, Səbuhi İbayev, Firuz Səxavətin ifasında muğam və təsniflər alqışlarla qarşılandı.

**Lalə**

# İkinci Bakı Beynəlxalq Piano Festivalı keçiriləcək

## 11 ölkədən musiqiçilərin iştirakı nəzərdə tutulub

İyunun 15-dən 29-dək II Bakı Beynəlxalq Piano Festivalı keçiriləcək. Bu barədə festivalın təsisçisi və direktoru, Əməkdar artist Şahin Növrəsli məlumat verib.

Onun sözlərinə görə, festivalın açılışı 15 İyun – Milli Qurtuluş Günündə Heydər Əliyev Mərkəzində təşkil olunacaq.

Festivalda 11 ölkədən (Azərbaycan, Fransa, İspaniya, Braziliya, Avstriya, Türkiyə, Kanada, Latviya, Macarıstan, Norveç, Almaniya) tanınmış musiqiçilərin iştirakı nəzərdə tutulub.

Əməkdar artist qeyd edib ki, festival günlərində paytaxtın musiqi salonlarında keçiriləcək konsertlərdə caz, flamenko, tanqo, klassik və s. musiqilər ifa olunacaq.

Qeyd edək ki, I Bakı Beynəlxalq Piano Festivalı 2022-ci ilin 20-27 may tarixlərində keçirilib.

# Akademik Milli Dram Teatrının kollektivi Siyavuş Aslanın xatirəsini anıb

İyun ayında Xalq artisti, görkəmli sənətkar Siyavuş Aslanın (1935-2013) vəfatının 10 ili tamam olur. Zəngin yaradıcılıq yolu olan korifey aktyor sənət həyatının son illərində çalışdığı Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında unudulmur, daim xoş xatirələrlə yad edilir.

Akademik Milli Dram Teatrının rəhbərliyi və kollektivi II Fəxri xiyabanda Xalq artisti Siyavuş Aslanın, Yasamal qəbiristanlığında isə sənətkarın bu yaxınlarda dünyasını dəyişən oğlu Çingiz Aslanın məzarlarını ziyarət edib.





Teatrın bədii rəhbəri Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, Xalq artistləri Rafiq Əzimov, Nurəddin Mehdixanlı və Əli Nur çıxış edərək Siyavuş Aslanın həyatı, səhnə fəaliyyəti, Azərbaycan teatrının inkişafındakı rolu haqqında danışıblar.

# Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı davam edir



Xəbər verdiyimiz kimi, 5-11 iyun tarixlərində paytaxtın Hüseyn Cavid prospektində, AMEA-nın binasının önündəki parkda II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı keçirilir.

Festival Beynəlxalq Türk Müəllifləri Birliyinin təşkilatçılığı, Azərbaycan Yazıçılar Birliyi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Milli Məclisin Mədəniyyət komitəsi, AMEA, Bakı Şəhər İcra Hakimiyyəti və Türk dünyası təşkilatlarının dəstəyi ilə gerçəkləşir.

Festivalda 50-dən çox nəşriyyat, 30-a yaxın xarici ölkə nümayəndəsi iştirak edir, həmçinin müxtəlif sahələrə dair nəşrlər, eləcə də rəngkarlıq və qrafika sənəti üzrə əl işləri təqdim olunur.

Festival çərçivəsində elmi konfranslar, şeir saatları, imza günləri təşkil edilir, filmlər nümayiş olunur. Tədbirlər hər gün bir ölkənin adı ilə (Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Macarıstan) adlandırılır.

Festival çərçivəsində iyunun 8-də (Türkiyə günü) bir sıra tədbirlər keçirilib. Günün birinci yarısında Kürdəmir Regional Mədəniyyət İdarəsinin tabeliyindəki Füzuli rayon Aybasanlı kənd Uşaq musiqi məktəbinin xanəndə ixtisası üzrə II sinif şagirdi Qumru Abdullayeva, Füzuli rayon uşaq musiqi və incəsənət məktəblərinin birləşmiş xoru, Füzuli şəhər 2 nömrəli Uşaq incəsənət məktəbinin rəqs kollektivi və s. musiqili proqramla çıxış ediblər.

Daha sonra Türkiyənin istiqlal şairi Mehmet Akif Ersoyun (1873-1936) 150, görkəmli ədəbiyyatşünas-alim, yazıçı, pedaqoq Mir Cəlal Paşayevin (1908-1978) 115, görkəmli nasir, kinodramaturq, tərcüməçi, Xalq yazıçısı Ənvər Məmmədxanlının (1913-1990) 110 illik yubileyləri münasibətilə tədbirlər keçirilib.

Günün ikinci yarısında tanınmış yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Əli Əmirli tərəfindən "Ustad sözü" adlı ustad dərsi və türkiyəli yazıçı Sinan Yağmurun oxucularla görüşü təşkil edilib.

Günün sonunda isə "Qarışqa" adlı türk filmi nümayiş olunub.

Qeyd edək ki, festival çərçivəsində iyunun 9-da (Qırğızıstan günü) Türk dünyasının görkəmli ədibi, Qırğızıstanın Xalq yazıçısı Çingiz Aytmatovun (1928-2008) 95 illik yubileyinə həsr olunmuş tədbir keçiriləcək.

Festival iyunun 11-də başa çatacaq.

**Nurəddin**

# Azad torpaqların dirçəlişinə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi də töhfə vermək istəyir



*əvvəli səh. 1-də*

Tədbir işini panel iclaslarla davam etdirib.

### Yenidənqurma, sülh və inteqrasiya

Bosniya və Herseqovinanın sabiq baş naziri Zlatko Laqumciyanın moderatorluğu ilə "Yenidənqurma, sülh və inteqrasiya" mövzusunda keçirilmiş birinci panel iclasında Amerika Xarici Siyasət üzrə Milli Komitəsinin prezidenti, səfir Suzan Elliott, BMT Baş Assambleyasının 75-ci sessiyasının (2020) prezidenti olmuş Volkan Bozkır (Türkiyə), Xorvatiyanın sabiq prezidenti Kolinda Qrabar-Kitaroviç və Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov çıxış ediblər.

Azad olunmuş ərazilərimizdə böyük infrastruktur işlərinin görüldüyü və bölgədə sülhün bərqərar olmasının inkişaf üçün vacibliyi vurğulanıb. Diqqətə çatdırılıb ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası üçün minaların təmizlənməsi mühüm rol oynayır və ölkəmiz bu zamana qədər minatəmizləmə sahəsində doğru addımlar atıb. Eyni zamanda insanların doğma torpaqlarına qayıdışı, onların yaşayış şəraiti və işlə təmin olunmaları üzərində işlərin davam etdirildiyi bildirilib.

### Mədəni irs və ortaq dəyərlər

İrqçiliklə Mübarizə üzrə Avropa Şəhərlər Koalisiyasının (ECCAR) prezidenti Benedetto Zakçirolinin moderatorluğu ilə keçirilən "Mədəni irs və ortaq dəyərlər" mövzusunda ikinci paneldə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, ICESCO-nun sabiq baş direktoru Əbdüləziz əl-Tüveycri və UNESCO-nun xoşməramlı səfiri Hedva Serin çıxışları dinlənilib.

Çıxışlar zamanı Qarabağın gələcəyinin və burada ətraf mühitin bərpasının iqtisadi artıma töhfə verdiyi qeyd edilib, ərazilərin işğaldan azad olunandan sonrakı və bugünkü mənzərəsi arasında çox böyük fərqlərin olduğu söylənilib. İşğal zamanı Azərbaycanın 200-ə yaxın tarixi abidəsinin dağıdıldığı, bu gün bu abidələrin mərhələli şəkildə yenidən qurulmasının və bərpasının həyata keçirildiyi diqqətə çatdırıb. Növbəti 4 il ərzində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində Şuşaya bir neçə min nəfərin köçürülməsinin nəzərdə tutulduğu qeyd olunub.

"Təşkilatın əsas məqsədlərindən biri də mədəni irsi qorumaq və bərpa etməkdir. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı, tarixi şəhəridir. Şuşanın mədəni irsini qorumaq bütün insanlığın borcudur", – deyə UNESCO-nun xoşməramlı səfiri Hedva Ser bildirib.

O qeyd edib ki, UNESCO-nun vəzifələrindən biri də dünyadakı mədəni diplomatiyanı, xalqlar arasındakı əlaqələri, problemlərin həllinin dialoqla reallaşmasını dəstəkləməkdir. Dünyadakı dəyişiklər xalqlar arasındakı əlaqələrə təsir etməməlidir.

***

Daha sonra Moldovanın sabiq hökumət başçısı Kirill Qaburiçin moderatorluğu ilə "Kapital və iqtisadi inkişafın uyğunlaşdırılması" və Gürcüstan baş nazirinin sabiq müavini Eka Tkeşelaşvilinin moderatorluğu ilə "Enerji və dayanıqlı inkişafın ekoloji çətinlikləri" mövzularında panellər keçirilib.






Monteneqronun və Xorvatiyanın sabiq prezidentləri Filip Vuyanoviç, İvo Yosipoviç, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev işğaldan azad edilmiş ərazilərə investisiyaların qoyulmasının, böyük şirkətlərin işğaldan azad edilmiş ərazilərə cəlb olunmasının əhəmiyyətindən söz açıblar. Qeyd olunub ki, şirkətlərin "tax-free" xidmətindən istifadə edərək bu cür məskunlaşmalar üçün yatırımlar edə bilmə imkanları mövcuddur. Həmçinin işğaldan azad olunmuş ərazilərə qayıdış prosesindən, insanların əsas ehtiyaclarının ödənilməsi istiqamətində görülən işlərdən və qazanılan təcrübənin gələcəkdə məskunlaşma prosesində istifadə olunacağından bəhs edilib.

Rumıniya parlamentinin üzvü Ana Birçall, Maltanın sabiq baş naziri Cozef Muskat, Bolqarıstanın sabiq dövlət başçısı Rosen Plevneliyev, Serbiyanın keçmiş prezidenti Boris Tadiç və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov müasir dünyadakı ən son çağırışlarla əlaqədar bərpaolunan enerji mənbələrinin çox vacib məsələyə çevrilməsindən danışıblar. Azərbaycanın Avropa üçün bərpaolunan enerji resurslarının ən böyük tədarükçüsünə çevrildiyi qeyd edilib, ölkəmizin "təmiz enerji"nin Avropa ölkələrinə nəqlinə mühüm töhfə verməyə hazır olduğu diqqətə çatdırılıb.

Panel iclası müzakirələrlə davam edib.

### Şuşa şəhərində bərpa və yenidənqurma işləri ilə tanışlıq

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Yenidənqurma, sülh və inteqrasiya: enerji, iqtisadiyyat, ətraf mühit və kapital" adlı beynəlxalq tədbirin iştirakçıları iyunun 7-də Şuşa şəhərində bərpa və yenidənqurma işləri ilə tanış olublar.

Qonaqlar əvvəlcə Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzinin ekspozisiya salonunda "Heydər Əliyev və Qarabağ" adlı fotosərgiyə baxıblar.

Sərgidə Heydər Əliyevin sovet dövründə Qarabağda sosial, iqtisadi, siyasi və mədəni inkişaf istiqamətindəki xidmətlərini əks etdirən unikal fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur.

Sonra Yuxarı Gövhər ağa məscidi, Molla Pənah Vaqifin Muzey-Məqbərə Kompleksi və Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialı ziyarət edilib.

### Dünya Nizami Gəncəvinin müdriklik xəzinəsindən çox şey öyrənir

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən təşkil edilən "Yenidənqurma, sülh və inteqrasiya: enerji, iqtisadiyyat, ətraf mühit və kapital" adlı beynəlxalq tədbir öz işini iyunun 8-də Gəncə şəhərində davam etdirib.

Qonaqlar əvvəlcə Nizami Gəncəvinin məqbərəsini ziyarət ediblər. Sonra Gəncə Dövlət Filarmoniyasında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsində yer alan dəyərlərin tədqiqi və təbliği əsasında əsərlər nümayiş olunub.

Tədbirdə çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov zəngin tarixi keçmişi olan şəhər barədə məlumat verib.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin dahi şairin həyat və yaradıcılığına dair maraqlı faktlardan bəhs edib. Bildirilib ki, dünya ədəbiyyatının görkəmli nümayəndəsi Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir.

Daha sonra çıxış edən ICESCO-nun sabiq baş direktoru Əbdüləziz əl-Tüveycri və Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 75-ci sessiyasının prezidenti Volkan Bozkır görkəmli şairin həyat və yaradıcılığına dair maraqlı faktlardan danışıblar. Qeyd edilib ki, Nizami Gəncəvi böyük bir xəzinə olub, dünya hələ də bu müdrik şairdən çox şey öyrənir.

Bolqarıstanın sabiq prezidenti Rosen Plevneliyev Mərkəzin layihəsi olan "Qələmin sehri – Nizami Gəncəvinin "Xəmsə"sindən seçilmiş əlyazmalar" kitabının xüsusi nəşrini Gəncə şəhərinin icra başçısı Niyazi Bayramova təqdim edib.

# "Günəşə qovuşmaq istəyirəm mən..."

## Növbəti regional xor müsabiqəsi keçirilib

Kürdəmir Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə "Heydər Əliyev İli"nə həsr olunmuş "Günəşə qovuşmaq istəyirəm mən..." adlı ikinci regional xor müsabiqəsi keçirilib.





Adını Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın "Elegiya" şeirinin misrasından götürən müsabiqənin birinci mərhələsi iyunun 3-də Füzuli rayon Aybasanlı kənd Uşaq musiqi məktəbində təşkil edilib.

Kürdəmir RMİ-nin rəisi Faiq Xudanlı müsabiqə iştirakçılarını təbrik edib, kollektivlərə uğur arzulayıb. Müsabiqənin birinci mərhələsində 7 uşaq musiqi, incəsənət məktəbinin xor kollektivləri münsiflər qarşısında çıxış edib.

Azərbaycan Dövlət Xor Kapellasının bədii rəhbəri Xalq artisti Gülbacı İmanova, Azərbaycan Dövlət Uşaq Filarmoniyasının direktoru Əməkdar incəsənət xadimi Dilarə Əliyeva və Bakı Musiqi Akademiyasının dosenti, Əməkdar müəllim Aqil Qafulovun yer aldığı münsiflər heyəti kollektivlərin çıxışlarını qiymətləndirib.

İyunun 7-də Beyləqan rayon Mədəniyyət Mərkəzində müsabiqənin birinci mərhələsinə yekun vurulub. Münsiflər heyətinin qərarına əsasən, Kürdəmir rayon Uşaq incəsənət məktəbinin xor kollektivi I, Füzuli rayon İnşaatçılar qəsəbə Uşaq musiqi məktəbinin xor kollektivi II, Füzuli rayon Böyük Bəhmənli kənd Uşaq musiqi məktəbinin xor kollektivi isə III yerə layiq görülüb.

Müsabiqədə fərqlənən Beyləqan rayon Niyazi adına Uşaq musiqi məktəbi, xormeyster və konsertmeysterlər fəxri fərmanla mükafatlandırılıb. Qaliblərin yekun konserti və mükafatlandırılması iyunun 13-də Füzuli rayon Heydər Əliyev Mərkəzində keçiriləcək.

**Nurəddin**

# "Maqsud əbədidir"

## Xalq yazıçısı Maqsud İbrahimbəyova həsr olunmuş kitabın təqdimatı



Xəbər verdiyimiz kimi, Heydər Əliyev Fondunun dəstəyi ilə Əməkdar jurnalist Nadejda İsmayılovanın Xalq yazıçısı, kinodramaturq, Dövlət Mükafatı laureatı Maqsud İbrahimbəyova (1935-2016) həsr edilmiş "Maqsud əbədidir" (Azərbaycan və rus dillərində) kitabı çap olunub.

İyunun 7-də Bakı Kitab Mərkəzində sənədli povestin təqdimatı keçirildi.

Mərkəzin direktoru Günel Anarqızı qonaqları salamladı və "Maqsud əbədidir" kitabının bu məkanda təqdim olunmasından məmnunluğunu bildirdi.

Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin direktoru Anna İbrahimbəyova dedi ki, əsər təkcə Maqsud İbrahimbəyov haqqında olan xatirələrdən ibarət deyil, bioqrafik nəsr nümunəsidir.

Azərbaycan Yazıçılar Birliyinin katibi Əməkdar mədəniyyət işçisi İlqar Fəhmi yazıçının özünəməxsus yaradıcılığından söz açdı. Bildirdi ki, M.İbrahimbəyovun əsərləri bütün nəsillər tərəfindən sevilir, qəhrəmanlarının hər birinin koloriti və yaddaqalan xarakteri ilə diqqəti cəlb edir: "Bizim nəsil onun nəsrinin ab-havasına köklənər, qələmindən çıxan yazıları böyük həvəslə gözləyər, kitablarını maraqla oxuyardı.



O, bütöv bir nəslin ədəbi siması olmaqla yanaşı, həm də əbədi oxunacaq bir yazıçıdır".

Müəllif Nadejda İsmayılova yazıçı ilə bağlı xatirələrini bölüşdü. Diqqətə çatdırdı ki, əsər edibin arxiv materialları, əlyazmaları dəqiq araşdırılaraq ərsəyə gətirilib. O, kitabın çapına görə Heydər Əliyev Fonduna və əməyi keçən hər kəsə təşəkkürünü bildirdi.

Təqdimatda çıxış edən digər qonaqlar da M.İbrahimbəyov haqqında xatirələrini bölüşdülər, yazıçının yaradıcılığının özünəməxsusluğundan söz açdılar. Çıxışlardan sonra rejissor Tərlan Rəsulovun səhnələşdirdiyi "Bağçada rahat yer" adlı eksperimental interaktiv tamaşa göstərildi. M.İbrahimbəyovun "Püstə ağacı", "Bağçada rahat yer" və "Əlvida, Miledi!" hekayələri əsasında hazırlanmış səhnə işində rollarda Əməkdar artistlər Elşən Rüstəmov, Mələk Abbaszadə, Şahin Növrəsli yer alıb. Bəstəkar Şahin Növrəsli tamaşada həmçinin royal arxasında musiqi kompozisiyaları ifa etdi.

Qeyd edək ki, "Maqsud əbədidir" kitabının ilk təqdimatı iyunun 2-də Heydər Əliyev Mərkəzində keçirilmişdi.

**Lalə Azəri**

# Vaqif Səmədoğlunun xatirəsi yad edilib

İyunun 7-də Səməd Vurğunun Ev-Muzeyində Xalq şairi Vaqif Səmədoğlunun (1939-2015) anadan olmasının 84-cü ildönümünə həsr olunmuş ədəbi-bədii gecə keçirilib. Gecəyə şairin qələm dostları, Vaqif poeziyasını sevənlər, gənclər yığışıb.




Şairin həyat və yaradıcılığından bəhs edilib, unudulmaz xatirələr yenidən canlandırılıb. Qeyd olunub ki, Vaqif Səmədoğlu Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olub, öz yaradıcılığı ilə bir neçə nəslin ədəbi zövqünün formalaşmasında rol oynayıb və bu gün də dərin fəlsəfi ruhlu şeirləri sevilir.

Tədbir iştirakçıları şairin şeirlərindən parçalar söyləyiblər. Vaqif Səmədoğlunun sözlərinə bəstələnmiş mahnılar, xalq mahnıları və digər əsərlər tanınmış sənətçilər və gənc musiqiçilərin ifasında səslənib.

# "Azərbaycan İsrail fotoqraflarının gözü ilə"

Azərbaycan Turizm Bürosunun İsrailin Təl-Əviv şəhərindəki nümayəndəliyinin ofisində "Azərbaycan İsrail fotoqraflarının gözü ilə" adlı fotosərginin açılışı olub.

Sərgidə Azərbaycana səyahət edən İsrail fotoqraflarının əsərləri nümayiş olunub. Tanınmış fotoqraf Viktor Zislinin də iştirak etdiyi səfər zamanı çəkilmiş fotolardan 20-si sərgidə yer alıb. Onlar Bakı və Azərbaycanın digər regionlarının mənzərələrini, təbiətini, tarixi və müasir memarlıq abidələrini əks etdirir.

Viktor Zislin və digər fotoqraflar öz çıxışlarında şəkillərin çəkildiyi məkanlar haqqında məlumat verərək təəssüratlarını bölüşüblər.

Qeyd edək ki, "Azərbaycan İsrail fotoqraflarının gözü ilə" adlı fotosərgi iyunun 29-dək Azərbaycan Turizm Bürosunun Təl-Əviv şəhərində, Herbert Samuel 10 ünvanında yerləşən nümayəndəlik ofisində ictimaiyyətin ziyarətinə açıq olacaq.

# Soydaşımız Kazanda "Dünya mirvarisi" yarışmasının qalibi olub

Rusiya Federasiyası Tatarıstan Respublikasının Kazan şəhərində keçirilmiş "Dünya mirvarisi-2023" beynəlxalq gözəllik və istedad müsabiqəsinin qalibi azərbaycanlı Kamilə Ələsgərova olub.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, "Səidaş" Mədəniyyət Mərkəzində keçirilən yarışmanın finalında 14 ölkə təmsil olunub. Final iştirakçıları milli mətbəx təamı ilə bağlı videotəqdimat edib, intellektual müsabiqəyə və dəfiləyə qatılıblar.

"Tatarıstan Respublikası Azərbaycan Milli-Mədəni Muxtariyyəti" regional ictimai təşkilatı gənclər bölməsinin sədri Kamilə Ələsgərova "Şah-plov"un hazırlanmasından danışıb və "Şalaxo" milli rəqsini məharətlə ifa edib. Rəqs nömrəsində ona "Ulduzlar bürcü" teatrının aktyorları və "QafqazStyle" rəqs ansamblı dəstək göstərib.

Müsabiqənin birincisi olan Kamilə Ələsgərova səsvermənin nəticələrinə görə, "Miss artistizm" və "Miss tamaşaçı rəğbəti" adlarını da qazanıb.

№43 (2012)
9 iyun 2023
www.medeniyyet.az

# "Sizə yadigar qalsın..."

## Şəhid rəssamın əsərlərindən ibarət sərgi

Sumqayıt Dövlət Rəsm Qalereyası və "Nəfəs" İctimai Birliyinin birgə təşkilatçılığı ilə şəhərdəki Heydər Əliyev Mərkəzində Vətən müharibəsi şəhidi, rəssam Rauf Məhərrəm oğlu İbadovun əsərlərindən ibarət "Sizə yadigar qalsın..." adlı sərgi keçirilib.



Tədbirdə şəhid rəssam haqqında məlumat verilib. Bildirilib ki, R.İbadov 1996-cı il mayın 4-də Abşeron rayonunun Saray qəsəbəsində anadan olub. 2013-2017-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetində İnşaat texnologiyası fakültəsində təhsil alıb. 2017-2018-ci illərdə N saylı hərbi hissədə xidmət edib. 2020-ci ilin iyul ayındakı Tovuz döyüşləri zamanı könüllü olaraq hərbi xidmətə yazılıb. Vətən müharibəsində Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı cəbhələrində döyüşüb. Oktyabrın 23-də Laçın rayonu ərazisində mühasirəyə düşdükləri zaman bir neçə düşməni məhv edib və qəhrəmancasına şəhid olub.

Saray qəsəbəsində torpağa tapşırılıb. Ölkə başçısının sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Tədbirdə Xalq artisti Gülyanaq Məmmədovanın ifasında R.İbadovun xatirəsinə ithaf edilmiş "Qəhrəmanlıq dastanı..." adlı klip (söz: Baba Vəziroğlu; musiqi: Sevinc Tofiqqızı) nümayiş olunub.

Rəssam Tofiq Əhmədovun çəkdiyi R.İbadovun portreti şəhidin valideynlərinə təqdim olunub.

Sonda qonaqlar şəhid rəssamın 44 əsərinin yer aldığı sərgi ilə tanış olublar.

# "Oxu, tar, Müşfiqi kim unudar..."

Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, repressiya qurbanı Mikayıl Müşfiqin (1908-1938) anadan olmasının 115 illiyi münasibətilə tədbirlər keçirilib.



Gəncə şəhər MKS-nin 19 saylı kitabxana filialı "Yenə o bağ olaydı..." adlı tədbir keçirib. M.Müşfiqin "Coğrafiya", "Məktəbli qız", "Qaya", "Zəhra üçün", "Yenə o bağ olaydı...", "Nə deməkdir?" şeirləri söylənilib, "Sevgi və gözəllik şairi" adlı videoçarx nümayiş etdirilib.

Masallı rayon Mərkəzi Kitabxanasında keçirilən tədbirdə şairin həyat və yaradıcılığından söhbət açılıb. Qeyd olunub ki, M.Müşfiqin yaradıcılığı gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsində əvəzsiz xəzinədir.

Sumqayıt şəhər N.Nərimanov adına Mədəniyyət Mərkəzində "Mən şirin ləhcəli bir bülbüləm ki..." adlı ədəbi-bədii gecə keçirilib. Şairin şeirləri səsləndirilib, kitablarından ibarət sərgi təşkil edilib.




Qazax rayon E.Hüseynov adına Mərkəzi Kitabxanasında "Oxu, tar, Müşfiqi kim unudar..." adlı şeir saatı təşkil edilib. Tələbə və şagirdlər şairin "Duyğu yarpaqları", "Müşfiqli günlərim" kitablarından şeir və xatirələri oxuyublar.

# "Heydər Əliyev İli" – konsert, açıq dərs, bilik yarışı...

Ağdaş rayon Heydər Əliyev Mərkəzi tərəfindən şəhər N.Gəncəvi adına 2 saylı tam orta məktəbdə "Heydər Əliyev və müasir Azərbaycan" mövzusunda açıq dərs təşkil edilib.

***

Bərdə rayon S.Vurğun adına Mərkəzi Kitabxanasının Uşaq şöbəsində "Zəka və ağıl" bilik yarışmasının yekun turu keçirilib. Bərdə şəhər F.Muradov adına 7 nömrəli tam orta məktəbin şagirdləri I, şəhər 3 nömrəli tam orta məktəbin şagirdləri II, akademik Zərifə Əliyeva adına məktəb-liseyin şagirdləri isə III yerə layiq görülüblər.





Bərdə şəhər şəhid F.Quliyev adına 2 nömrəli Uşaq musiqi məktəbinin təşkilatçılığı ilə rayon Mədəniyyət Mərkəzində "Sən elə bir zirvəsən..." adlı hesabat konserti keçirilib. Şagirdlərin ifasında rəngarəng musiqi nömrələri təqdim olunub. Məktəbin bir qrup müəllim və şagirdi regional idarə tərəfindən təltif edilib.

***







Tovuz rayon Aşıq Ə.Cəfərov adına Mədəniyyət Mərkəzi və Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyinin birgə təşkilatçılığı ilə "Biz Heydər nəvəsiyik!" adlı tədbir keçirilib. Mərkəzdə fəaliyyət göstərən akustik-klassik gitara dərnəyinin şagirdləri və digər dərnək üzvləri tərəfindən konsert proqramı təqdim olunub.

***

Salyan rayon Mədəniyyət Mərkəzinin Dayıkənd kənd Mədəniyyət evinin təşkilatçılığı, Sarvan kənd Folklor evi və Şorsulu kənd klubunun tərəfdaşlığı ilə Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan "Qəlblərdə yaşayan öndər" adlı tədbir keçirilib.

***

Şəmkir şəhər Uşaq musiqi məktəbinin şagird və müəllim kollektivi tərəfindən Şəmkir Heydər Əliyev Mərkəzində konsert proqramı təşkil edilib. Bir-birindən maraqlı ifalar alqışlarla qarşılanıb. Sonda iştirakçılara təşəkkürnamə təqdim edilib.

Gədəbəy rayon Slavyanka kənd Uşaq musiqi məktəbinin kollektivi tərəfindən Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş hesabat konserti keçirilib. Şagirdlərin ifasında Azərbaycan və xarici bəstəkarların əsərləri səsləndirilib.

***

Zaqatala rayon Mədəniyyət Mərkəzində "Mədəniyyətimizin hamisi Heydər Əliyev" mövzusunda tədbir təşkil edilib. Çıxış edənlər Ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti haqqında söz açıb, dahi siyasətçinin mədəniyyətimizə qayğısından danışıblar.

# İnsan hüquqlarının müdafiəsi dövlətin ali məqsədidir



Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası insan hüquqları üzrə müvəkkilinin (ombudsman) təşəbbüsü ilə mayın 18-dən iyunun 18-dək respublikamızda "İnsan hüquqları aylığı" (#İnsanHüquqlarıAylığı) elan edilib. Bu çərçivədə bölgələrdə müxtəlif tədbirlər keçirilir.

Şirvan Şəhər İcra Hakimiyyəti və Şirvan Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə "Azərbaycanda insan hüquqlarının təmin edilməsi dövlətin ali məqsədidir" mövzusunda maarifləndirici tədbir keçirilib. Ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması istiqamətində görülmüş işlərdən söhbət açıblar.

***

Yevlax şəhər Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə "Ailədaxili zorakılığa yox deyək!" adlı film təqdim olunub.

Yevlax şəhər Xaldan kənd Uşaq musiqi məktəbindəki tədbirdə şagirdlər tərəfindən insan hüquqlarına həsr olunan kompozisiya təqdim edilib.

***

Qax rayon Əmbərçay kənd kitabxanası və kənd klubu "Hüquq və azadlıqlarımız" adlı dəyirmi masa təşkil edib.

Qax Dövlət Gürcü Dram Teatrın kollektivi S.Vurğun adına Qax rayon Mədəniyyət Mərkəzinin Əlibəyli kənd Mədəniyyət evində "Hüququmuzu bilək ki, erkən nikahlara yox deyək!" adlı tədbir keçirib. Teatrın kollektivinin iştirakı ilə həmçinin "İnsan və vətəndaş hüquqları" adlı maarifləndirici tədbir təşkil edilib

***

Ağdam rayon Heydər Əliyev Mərkəzində "İnsan hüquqlarının müdafiəsi dövlətin ali məqsədidir" adlı tədbir keçirilib. Bildirilib ki, Azərbaycanın insan hüquqları ilə bağlı beynəlxalq sazişlərə qoşulması, hüquqi mexanizmlərin təkmilləşdirilməsi və digər məsələlər ölkəmizdə insan hüquqlarına verilən dəyərin əsas göstəricisidir.

***



Masallı Tarix-Diyarşünaslıq Muzeyində "Hüquqları bilmək gələcəyimizin təminatıdır!" başlıqlı tədbirdə Ərkivan qəsəbə 2 və 4 saylı, Dəmirçi kənd tam orta məktəblərinin müəllim və şagirdləri iştirak ediblər.

Bu mövzuda daha bir tədbir Cəlilabad rayon Heydər Əliyev Mərkəzi və rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə keçirilib.

***

Gəncə şəhər MKS-nin 2 saylı kitabxana filialında "Hüquqlarını bil, erkən nikaha yox de!" adlı tədbir təşkil olunub. Çıxış edənlər erkən nikahın gənclərə, ailələrə, bütövlükdə cəmiyyətə vurduğu zərərlərdən danışıblar.

**Hazırladı: N.Məmmədli**

# "Göydə bircə ovuc tüstüsü qaldı"...

## Şəki teatrının Bakıya gətirdiyi "21:15 qatarı" haqqında

*əvvəli səh. 1-də*

Şəki teatrında "gerçəkliyin mengənə oyunu"na gənc rejissor, maraqlı düşüncə və zövqə malik Elvin Nuri quruluş verib. Səhnə əsərinin quruluşçu rəssamı Sahib Əhmədov, geyim üzrə rəssamı Surə İslamova, musiqi tərtibatçısı Zeynəb Xəlilovadır. Rolları Əməkdar artistlər Akif Yusifov (Vağzal məmuru), Rəhim Qocayev (Kişi), aktyorlar Lalə Məmməd (Qadın) və Rəsul Məmmədrəhimov (İkinci kişi) ifa edirlər.

...Bir platformalı kiçik dəmiryol vağzalı: sağ tərəfdə qapısı platformaya baxan, kiçik pəncərəsi səhnəyə açılan bir otaq var. Pəncərənin üstündə "Kassa" yazılıb. Tamaşaçılarla üzbəüzdə skamya, skamyanın solunda isə lampaları solğun, sarımtıl işıq saçan iki elektrik dirəyi. Sağda – otağın ön divarının lap yuxarısında asılan vağzal saatı 21:15-i göstərir. Səhnə elə işıqlandırılıb ki, gecə olduğu bilinir.

Pərdə açılır. Kişi skamyada əyləşib qəzet oxuyur, eyni zamanda qulaqlıq taxıb musiqi dinləyir. Vağzal məmuru uzunsaplı süpürgə ilə yeri süpürür, topladığı çör-çöpü – skamyadakı qadın çantasını, səhnənin önündəki saat əqrəbini – zibil qutusuna atır. Sonra əsgi ilə skamya, lampa və kassa pəncərəsinin tozunu alır. Əynindəki təmiz, lakin nimdaş nəzarətçi geyimi, qocaldığı, artıq pensiya yaşına çoxdan çatdığı əyilən qamətindən sezilsə də, buna inad çevikliyi də sezilir. İşini tamamlayır. Sonra heç vaxt bilet satıb, qatar qarşılayıb, yola salmağını görmədiyimiz kassasına – özünün kiçik məzarına girir.

Ucaboylu, səliqəli geyimli ortayaşlı kişi də öz işindədir – qəzetdən oxuyub, musiqidən zövq aldığını göstərir. Vağzala gələn ortayaşlı, səliqəli və tələskən qadının da fərqində deyil. Qadın çamadanı çəkə-çəkə kassaya yaxınlaşır və şüşəni döyür. Vağzal məmuru pəncərəni açır. Qadın həyəcanlı halda 21:15 qatarının nə zaman gələcəyini soruşur. Etinasız deyilən "bilmirəm"dən əsəbiləşərək vağzal saatına baxır, "saat 21:15 olub ki..." deyərək ümidsizcəsinə dəmir yoluna boylanır.

Yaşlı məmur pəncərəni örtür, sonra qapını açıb eşiyə çıxır, süpürgəni götürüb təzədən yeri süpürməyə başlayır. Qadın çaşqınlıq içində onu seyr edir. Sonra suallardan və səbirsiz sərnişinlərdən bezmiş halda "Xanım, o saat həmişə 21:15-i göstərir" deyir. Sonra daha da gərilərək ona "Yaxşı, onda, Allah xətrinə, deyin: bu mirət qatar, adətən, saat neçədə gəlir?" sualını verən qadının intizarına birdəfəlik son qoyaraq qəti şəkildə "Heç neçədə" cavabını verib, yenə də kassa-məzarına girir.

Qadın çaşmış halda bir müddət yerində donub qalır. Sonra çamadanını çəkə-çəkə Kişinin əyləşdiyi skamyaya yaxınlaşır və bir qıraqda əyləşir. Hərdənbir dönüb nəzərlərini Kişiyə zilləyir. Amma o, qəzet oxumağa, musiqi dinləməyə elə aludə olub ki, bu baxışları hiss eləmir.

Onlar bir-birinin fərqinə varmaq üçün çoxdan gecikmiş iki son yolçudurlar. Əslində, heç biri niyə və nə üçün yaşadıqlarını, daha doğrusu, niyə bu boyda ömrü istədikləri kimi yaşamadıqlarını dərk ediblər.

Tamaşa boyu biz həyata gələndən ölüm uğrunda mübarizəmizi, əslində, dünyaya ölmək üçün gəldiyimizi dərk etdiyimiz halda belə yaşamaqdan çox, "yaşatmaq", "başqaları nə deyər, nə düşünər", "bəlkə belə olsa, daha yaxşıdır", "yox əşi, sabah daha maraqlı olar", "qoy, bu gün, bu ay, bu il keçsin, daha yaxşı olacaq" kimi cəfəng və tüfeyli düşüncələrimizin darmadağın olduğunu dərk edirik.





Doğurdan e, məgər elə deyil? Elə bil kimsə mərkəzdə oturub, əlini çənəsinə dayayan teatrşünası, yarıqaranlıq səhnədə işığı düzgün nöqtəyə verməyən işıq rəssamını, telefonunu səssiz rejimə qoymayan qıvrımsaç gənci, kamerasının işığını söndürmədiyi halda düz zalın ortasında o yan-bu yana gedən təcrübəsiz televiziya operatorunu nişan verirmiş kimi nə isə pıçıldayır: Sənin qatarın nə vaxt gələcək?...

Onlar da, siz də, elə mən də yoruldum. Bu an sonda onsuz da hamının vədəsiz hesab etdiyi səs gəlir – taq, taq, taq. Bayaqdan gərilən sinirlərə ürək döyüntülərinin artan ritmi də əlavə olunur. Qadın tələsir, sevinir, həyəcanlanır. Kişi isə "Hazırlamalı bir şeyim yoxdur. Həm də, o çamadanı əziyyət çəkib sürütləməyin, 21:15 qatarına yük götürmürlər!..." deyib uzun işıq dirəyinin öləziyən ziyasında özü də bir dirəyə "dönür". Qadın isə Kişinin nə dediyini sanki eşitmir. Həyəcanlı halda, çamadanını sürütləyə-sürütləyə, platformanın arxa tərəfinə keçərkən "gəlsənizə!" deyib qatar yoluna boylanır.

Kişi isə heç yerindən də qımıldanmır. Birdən işıqlar sönür. Sürətlə keçən qatarın fit səsini xatırladan uğultu vağzala yaxınlaşdıqca güclənir, vağzaldan uzaqlaşdıqca zəifləyir. Səhnənin arxasındakı divara sanki sürətlə keçib gedən qatarın açıq pəncərələrindən işıqlar düşür. Tamaşaçıların qulağına relslərə dəyən təkərlərin səsi gəlir. Birdən işıqlar itir, relslərə dəyən təkərlərin səsi get-gedə uzaqlaşır və nəhayət, gecənin qaranlığında əriyib yox olur.

Səhnə təkrar işıqlananda Qadın çaşqın halda görünür. O, heyrət içində vağzal məmuruna baxır. Kişi isə artıq yoxdur. Kitabı və musiqi dinləmək üçün cihazı bir az əvvəl əyləşdiyi skamyanın üstündədir.

Yalnız bu zaman "Dayanmadı!" deyən qadının necə ağır yükün altında olduğunu hiss edirik. Bu itki bircə adətkər vağzal məmurunun vecinə deyil. Odur ki, yenidən bezmiş halda geriyə – otağına gedə-gedə "Zatən heç dayanmır" nidasında işini, ola bilər ki, həm də ömrünü bitirir.

Qadın isə hələ də çaşqınlıq içindədir. O, geriyə dönüb Kişinin yerində olmadığını görəndə tək həmsöhbətini itirməyin verdiyi əzabla məmurdan onun da yerini xəbər alır. "Xanım, nə bəy? Burada bəy-filan olmayıb" cavabından sonra hər şeyin fərqinə varır. Düşən çiyinləri, sinəsinə əyilən başı və rabitəsiz nitqi onu gerçəyin içinə çəkir. Ağır addımlarla Kişinin bir az əvvəl əyləşdiyi skamyaya tərəf gedir və kitabı əlinə alıb, səhifələri yavaş-yavaş çevirir. Bu vaxt İkinci kişi ağır çamadanlarını darta-darta səhnəyə qalxır. Qatarın nə vaxt gələcəyini soruşub əşyalarını kassanın önünə qoyub bilet almağa tələsir. Beləcə, tarix və dialoqlar təkrarlanır. Heç vaxt başqaları üçün gəlməyəcək "21:15 qatarı"nın sərnişini olan Qadın gülümsəyərək yeni sakinə nə isə izah etməyə çalışır. Sonra fikrindən daşınıb o da qatar gəlincəyədək susur...

Tamaşa, onun müəllif ideyası və quruluşu, aktyor oyunu, ələlxüsus da əsas plana xələl gətirməyən əlavə keçidlər əsərin tam mahiyyətinə varmaq baxımından uyğun səhnə aktı idi. Yeganə qüsur ölümdən keçən və onu gözləyən iki nəfərin dialoqundakı qışqırtı, qeyri-adi hərəkətlilik, tamaşaçının fikrini dağıdan izafi jestlər, seyrçiyə xitab dönüşləri əsas ideyanın birbaşa nüfuz etməsinə xələl gətirirdi.

Qonaq teatrın paytaxt tamaşaçıları ilə görüşü ümumən maraqlı oldu. Deməli, Şəki teatrı hər zaman olduğu kimi, öz ampluasında qaldığını və ənənəsini ustalıqla yaşatdığını tamaşaçıya elan-təqdim edə bilir.

**Həmidə Nizamiqızı**

# Xalq rəssamının 80 illiyi münasibətilə növbəti sərgisi açılıb

Bu il görkəmli fırça ustası, pedaqoq, Xalq rəssamı Arif Hüseynov 80 illiyini qeyd edir. Rəssam yubiley ilində rəsm həvəskarlarını sərgilərlə sevindirir.




İyunun 6-da Muzey Mərkəzinin Sərgi qalereyasında “Yubiley sərgiləri” silsiləsindən növbəti – “Qrafika” adlı fərdi sərgisinin açılışı keçirilib.

Mədəniyyət Nazirliyi, Milli Məclisin Mədəniyyət komitəsi, Azərbaycan Rəssamlar İttifaqı, “HüsnArt” təsviri sənət mərkəzi tərəfindən təşkil olunan sərgidə millət vəkilləri, mədəniyyət, incəsənət, elm xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev tədbiri açaraq qeyd edib ki, Arif Hüseynov çoxsaylı kitab nəşrlərinə illüstrasiyalar yaradıb. Təqdim olunan “Qrafika” ekspozisiyasında Azərbaycan tarixinə həsr olunmuş ağ-qara qrafika işləri yer alıb.

Rəssamlar İttifaqının sədri Xalq rəssamı Fərhad Xəlilov, Yazıçılar Birliyinin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev, Xalq yazıçısı Natiq Rəsulzadə, Əməkdar jurnalist Etibar Babayev və layihənin əlaqələndiricisi, Azərbaycan Dövlət Rəsm Qalereyasının böyük elmi işçisi Ziyarət Cabarova Arif Hüseynovun yaradıcılığından söz açıblar. Qeyd olunub ki, sərgidə Xalq rəssamının 80 əl işi yer alıb. Müəllifin əsərlərində rəsm və ədəbiyyat qarşılıqlı əlaqədədir.

Ekspozisiyada rəssamın artıq keçmişdə qalan Qarabağ münaqişəsinin özünəməxsus qrafika xronologiyası – I Pyotrun Qafqazla bağlı planlarından və Azərbaycanı çar Rusiyası ilə İran arasında bölən Türkmənçay müqaviləsindən (1828) Qarabağın 30 illik işğalı və ermənilərin törətdikləri vəhşiliklərə qədər əks etdirən əsərləri təqdim edilir.

Arif Hüseynov Qarabağın zəngin mədəni irsinə, tanınmış şəxsiyyətlərinə çoxlu rəsmlər həsr edib. Bu sıraya Üzeyir Hacıbəyli, Seyid Şuşinski, Məşədi Cəmil Əmirov, Cabbar Qaryağdıoğlu, Sadıqcan və başqalarını misal göstərmək olar. Rəssam bütün bunları, hətta Qarabağın, Şuşanın rəmzi olan xarıbülbül gülünü ağ-qara tonda verib. Fırça ustasının yaradıcılığında uşaq mövzusu da xüsusi yer tutur. Təsadüfi deyil ki, Arif Hüseynovun yubileyinə həsr olunmuş ilk sərgi “Azərbaycan nağılı” adlanırdı. Ümumilikdə o, yüzə yaxın uşaq kitabına illüstrasiyalar çəkib.





Arif Hüseynov çıxışı zamanı sərginin təşkilatçılarına minnətdarlığını bildirib. Diqqətə çatdırılıb ki, “Qrafika” sərgisində rəssamın oğlu Orxanın qızı Dilbər Hüseynin rəsmləri də yer alıb. Bu onu deməyə əsas verir ki, Hüseynovlar ailəsində qoyulmuş sənət ənənəsi davam edəcək.

Sonra qonaqlar ekspozisiya ilə tanış olublar. Qrafika nümunələri tamaşaçıların böyük marağına səbəb olub.

Sərginin açılış mərasimində Azərbaycan Dövlət Simli Kvartetinin solistləri Əməkdar artistlər Ceyla Seyidova (skripka), Vaxtanq İmanov (alt) və Aleksey Miltıx (violonçel), həmçinin Anar Seyidov (skripka) musiqi nömrələri təqdim ediblər.

Xalq rəssamının Muzey Mərkəzindəki “Qrafika” sərgisi iyunun 10-da başa çatacaq. Xatırladaq ki, “Yubiley sərgiləri” silsiləsindən bu il fevralın 17-də Arif Hüseynovun “Azərbaycan nağılı” sərgisi təşkil olunmuşdu.

**Lalə**

# Rənglərin işığında qadına münasibət

## “Çəhrayı – Qara” sərgisi haqqında təəssürat

Azərbaycan Rəngkarlığı Muzeyinə Xalq artisti Vaqif Mustafayevin “Həyat, deyəsən, gözəldir” filminin premyerasına (26 may) gedərkən burada bir həftə öncə açılmış “Çəhrayı – Qara” sərgisini də izləmək imkanım oldu.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə YARAT Müasir İncəsənət Məkanında açılan sərgi elə ilk baxışdan insanı düşündürür və təkcə təsviri sənətə deyil, həm də həyata baxışı əks etdirir. Sərgidə nümayiş olunan əsərlər dünən, bu gün və sabahı göstərir. Bu əsərlərin hər birində dərin məzmun qatları var. O, mövzunu tamaşaçı üçün bütünlüklə açmağa çalışır və reallığı diktə edir. XX əsrin ustad sənətkarları ilə yanaşı, müasir rəssamların da əsərlərinə yer verilib. Ekspozisiya fəlsəfiliklə bərabər, sadəlik və açıq fikir aydınlığı ilə mövzuları tamaşaçıya aça bilir.

Ekspozisiyada Əzim Əzimzadə, Toğrul Nərimanbəyov, Elmira Şahtaxtinskaya, Odtəkin Ağababayev, Ağa Mehdiyev, Altay Hacıyev, Bəyim Hacıyeva, Hüseyn Haqverdiyev, Əşrəf Murad, Fazil Nəcəfov, Fərhad Xəlilov, Elmira Hüseynova, Ələkbər Rzaquliyev, Əli Verdiyev, Qorxmaz Əfəndiyev, Rasim Babayev kimi ustad sənətkarların rəngkarlıq, qrafika və heykəltaraşlıq əsərləri nümayiş olunur. Burada həmçinin yeni nəsil rəssamlardan Soltan Soltanlı, Şahnaz Ağayeva, İslam Həsənəlizadə, Erkin Ələkbərli, Aqil Abdullayev, Aiplague və Vüsal Rəhimin rəngkarlıq, qrafika, heykəl, instalyasiya, video və performans əsərləri bir araya gətirilib.

İlk olaraq plakat və dəzgah rəssamlığı bölməsi diqqətimi çəkir. Zaman keçir, ictimai formasiya bir-birini əvəz etsə də, insanın ətraf mühitə, cəmiyyətə mesajı eyni olaraq qalmaqdadır. Bizim bu gün də güclü ideoloji mesajlara ehtiyacımız var və maraqlısı da budur ki, öz aktuallığını itirməyən və günümüzlə səslənən tablolar gənc nəslə bir çağırışdır. Ekspozisiyada ustad və gənc rəssamların əsərlərinin hər biri insanın ətraf mühitə, cəmiyyətə, qadına münasibətini izah edir.

Bu məqamda sərginin adı haqqında düşünürəm: “Çəhrayı – Qara”. Sərgi güclü Azərbaycan qadını haqqında hekayədir və qadına qarşı cəmiyyətdəki stereotip, məhdudiyyətlərə rəğmən onun mühüm rolunu vurğulayır. Bununla yanaşı, ekspozisiya təkcə bugünkü cəmiyyətimizdə deyil, əsrlər boyu qadına olan münasibəti, onun statusunu, təsir imkanlarını və gücünü, o cümlədən üzləşdiyi problemləri nəql edir...



Bəli, bu problemləri biz həm XX əsr görkəmli rəssamlarımızın, həm də onların xələflərinin əsərlərində əks olunduğunu görürük. Bəzən pozitiv, bəzən də bədbin. “Çəhrayı – Qara” sərgisi həm də illər ərzində sənətçilərin prizmasından ötürülən cinsiyyət haqqında bir mesajdır. O, tamaşaçılara müxtəlif dövrlərdə cinsin necə qəbul edildiyini düşünməyə imkan yaradır. Sərgidəki 13 ustad sənətkarın əsərləri ilə yanaşı, yeni nəsil fırça ustalarının əl işlərini izlədikcə onların da düşüncəsindəki qadın obrazlarına, qadının cəmiyyətdə mövqeyinə baxışlarını müqayisə etmək imkanı qazanırıq.

XX əsrin ortalarından Azərbaycan çağdaş rəssamlığı artıq ilk addımlarını atmaqda idi. Tarixi və müasir mövzularda əmək, məişət, qadın azadlığı, savadsızlığın ləğvi kiçik həcmli tablolarda əks olunurdu. Həmin dövr milli özünəməxsusluğu təcəssüm etdirən sənət yaratmaq niyyətləri rəssamlarımızın miniatür ənənələrinə yaxın şərti dekorativ üslubda işlədikləri tablolarında daha çox görünürdü. Bu üslubda biz Əzim Əzimzadənin sərgilənən əsərlərini nümunə çəkə bilərik.

Sərgi sənət nöqteyi-nəzərindən bir ziyarətçi kimi mənə nəyi diktə etdi? Əgər ötən əsrdə portret janrı rəssamlarımızın yaradıcılığında əsas yer tuturdusa, bu gün alt qatında dərin mənalar yatan əsərlər daha çox yaradılır. Əsərlərin üslub və texnikası dəyişir, kompozisiya və plastik həll prinsipləri nəzərəçarpacaq dərəcədə yenilənir. Yeni bədii təfəkkür müasir rəssamlıqda qadın obrazları mövzusuna münasibətdə də özünü göstərir. Hər birinin özünəməxsus gözəlliyi, plastikası var və əsərlərdə həm Şərq, həm də Qərb qoxusunu duymaq mümkündür.



Bu sərgi ümumilikdə fərqli qadınlara müxtəlif məkan və zamandan asılı olmayaraq tətbiq etdiyimiz stereotipləri, çiyinlərinə qoyduğumuz rolları və funksiyaları əks etdirir. Burada eyni zamanda çağdaş təsviri sənət ustalarının buna qarşı mübarizəsi də var.

Məsələn, biz Ələkbər Rzaquliyevin “Balığın çənlərdən seçilməsi” (1963) və “Tütünçülük kolxozu” (1966) əsərlərində sənaye inqilabından sonrakı dövrün qadınlarının təsvirini görürük. Qadınlar sənayenin müxtəlif sahələrində azad çalışırlar. Lakin bu onların azadlığı deməkdirmi? Əksinə, bu əsərlər qadınların iş yükünün çoxalmasına işarə edir. Qadın nəinki evdə, həm də sənayedə çalışır. İstənilən halda ev işləri və uşaqlara qayğı onların boynunda qalmaqdadır. Bu hal ötən əsrdə də belə idi, bu gün də belə davam edir. Prosesin davam etdiyini Soltan Soltanlının əsərlərində də görmək mümkündür. Onun qadın obrazları dərin fəlsəfi qatları ilə seçilir. Təkcə “Saçından asılmış qadın” əsəri rəssamın düşüncə və mesajının nə dərəcədə ağıryüklü olduğunu göstərir.

Azərbaycan Rəngkarlığı Muzeyindəki bu mürəkkəb və fərqlilikləri görmək üçün Fərəh Ələkbərlinin kuratoru olduğu sərgini ziyarət etmək lazımdır. Ekspozisiyaya Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası, AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu, Azərbaycan Rəssamlar İttifaqı, Elnur Babayev və Vüsal Rəhimin kolleksiyalarında saxlanılan əsərlər daxil edilib.

...1980-ci illərdən etibarən qadın və kişi idealları keçmişin cinssiz təbliğat klişelərindən uzaqlaşaraq nəzərdən keçirilirdi. Sovet hakimiyyətinin süqutundan sonra yeni qazanılan azadlıqlar neokonservativ məhdudiyyətlərlə ayaqlaşaraq qadın identikliyinin siyasi və ictimai əhəmiyyətini vurğulamaq üçün qadınlığın tarixi alleqoriyalarına işarələr verməyə başladı...

Siz də sentyabrın 24-dək açıq olacaq “Çəhrayı – Qara” sərgisini ziyarət edin ki, zərif cinsin nümayəndələrinə birmənalı olmayan sənətkar baxışlarından xəbərdar olasınız.

**L.Azəri**

# Filarmoniyada konsertlər – “Yeni adlar” və xor kapellası

Mədəniyyət Nazirliyinin “Yeni adlar” layihəsi çərçivəsində növbəti konsert iyunun 12-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçiriləcək.

Konsertdə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (bədii rəhbər və baş dirijor Əməkdar artist Fuad İbrahimov) müşayiəti ilə solistlər Zərrin Əliyeva (violin) və Nərmin İsmayılova (piano) çıxış edəcəklər.

***

İyunun 16-da isə Mədəniyyət Nazirliyinin dəstəyi ilə M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Azərbaycan Dövlət Xor Kapellasının (bədii rəhbər və dirijor Xalq artisti Gülbacı İmanova) konserti olacaq. Konsert Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilib.

Filarmoniyadan verilən məlumata görə, proqramda dünya bəstəkarlarının əsərləri səslənəcək. Xormeysterlər Əməkdar artist Yulizana Kuxmazova və Əməkdar incəsənət xadimi Dilarə Əliyeva, konsertmeysterlər Elxan Niftiyev və Nərmin Rzayevadır.

“Heydər Əliyev İli”

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları “Heydər Əliyev İli”nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (39)

### 1990-cı il 21 yanvar

Sovet ordu hissələrinin Bakıda törətdiyi qırğının ertəsi günü Heydər Əliyev Azərbaycan SSR-nin Moskvadakı daimi nümayəndəliyinə gələrək doğma xalqının üzləşdiyi facia ilə əlaqədar bəyanat verib.

### 1990-cı il iyun

“Ulduz” jurnalının 6-cı nömrəsində Heydər Əliyevin Moskvada jurnalist Elmira Əhmədovaya (Əmrahqızı) verdiyi müsahibə dərc olunub.

### 1990-cı il 20 iyul

Heydər Əliyev yeddi ildən artıq yaşadığı Moskvadan Azərbaycana qayıdıb. O vaxt respublikaya rəhbərlik edənlərin (Ayaz Mütəllibov və ətrafı) Heydər Əliyevə qarşı siyasi qısqanclığı ona Bakıda qalmağa imkan vermədi və o, bir gün sonra Naxçıvana getdi.

### 1990-cı il 22 iyul

Naxçıvan şəhər meydanında Heydər Əliyevin əhali ilə izdihamlı görüşü olub. O, çıxışında bəyan edib ki, Azərbaycan xalqı respublikanın ərazi bütövlüyü, suverenliyi və dövlət müstəqilliyi uğrunda mübarizə aparacaq. Beləliklə, Heydər Əliyevin fəaliyyətinin üç il davam edəcək Naxçıvan dövrü başlandı.

### 1990-cı il 30 sentyabr

Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə seçkilər keçirilib. Heydər Əliyev hər iki qanunverici orqana deputat seçilib.

### 1990-cı il 17 noyabr

12-ci çağırış Naxçıvan MSSR Ali Sovetinin 1-ci sessiyası keçirilib. İlk iclasa ən qocaman deputat kimi Heydər Əliyev sədrlik edib. Sessiyada muxtar respublikanın adından “Sovet Sosialist” sözlərinin çıxarılması, Ali Sovetin Ali Məclis adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının muxtar respublikada dövlət rəmzi olması barədə qərarlar qəbul olunub. Eyni zamanda, Azərbaycan SSR Ali Sovetinə bayraqla bağlı müvafiq qərarın qəbulu üçün müraciət edilib.

### 1991-ci il 5 fevral

12-ci çağırış Ali Sovetin ilk iclasında Azərbaycan SSR-in Azərbaycan Respublikası adlandırılması haqqında qərar qəbul olunub, Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Azərbaycanın Dövlət bayrağı kimi təsdiq edilib. Sessiyada çıxış edən Heydər Əliyev Ermənistanın Azərbaycana ərazi iddialarına qarşı müdafiə mövqeyində yox, hücum mövqeyində durmağın vacibliyini vurğulayıb.

### 1991-ci il 30 avqust

Heydər Əliyev Ali Sovetin növbədənkənar sessiyasında “Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında” Bəyannamənin qəbul olunması ilə bağlı çıxış edib.

### 1991-ci il 3 sentyabr

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilib. O, bununla bağlı iclasda çıxış edərkən demişdi: *“Mən Azərbaycanın ağır dövründə xalqıma xidmət etmək üçün gəlmişəm. Mənə bir neçə dəfə Moskvada, elə burada da sual verilmişdi ki, siz öz köməyinizi nədə görürsünüz? Cavab vermişdim ki, Azərbaycan xalqının hər bir tapşırığını yerinə yetirməyə hazıram... Naxçıvanın belə vəziyyətində, çətin dövründə mənim üzərimə düşən vəzifədən geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini bu çətin dövrdə yerinə yetirməliyəm...”.*

### 1991-ci il 16 dekabr

Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev Ali Məclisin 31 dekabrın “Dünya azərbaycanlılarının həmrəylik və birlik günü” elan olunması haqqında qərarını imzalayıb. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Soveti də bu günlə bağlı qərar qəbul etdi.

### 1992-ci il may

Heydər Əliyev Ermənistanın muxtar respublikaya qarşı hərbi təcavüzünün qarşısının alınması üçün təcili tədbirlər görüb, o cümlədən 18 mayda ermənilərin Sədərək rayonuna hücumu ilə əlaqədar Türkiyənin Baş naziri Süleyman Dəmirəllə telefonla danışıb, 21 mayda Naxçıvana gələn Türkiyə XİN nümayəndə heyətini qəbul edib, 27 mayda BMT-nin Naxçıvana gələn xüsusi nümayəndə heyəti ilə görüşüb. 28 mayda Türkiyənin Baş naziri Süleyman Dəmirəl Naxçıvana gəlib, Naxçıvanla Türkiyə arasında Araz çayı üzərində tikilmiş “Ümid” körpüsünün açılışı olub.

### 1992-ci il 23 oktyabr

Heydər Əliyev Naxçıvanda böyük şair Hüseyn Cavidin 110 illiyi münasibətilə keçirilən tədbirdə çıxış edib. Heydər Əliyev fəaliyyətinin Naxçıvan dövründə gərgin iş rejiminə rəğmən, hərbi təcavüz cəhdlərinin önlənməsi, ağır sosial-iqtisadi problemlərin həlli yönündə tədbirlərlə yanaşı, mədəniyyət sahəsini də diqqətdə saxlayırdı.

*“...Azərbaycan müstəqil dövlətdir, müstəqilliyi təmin etmək üçün, şübhəsiz ki, böyük çətinliklər və problemlər vardır. Amma Azərbaycan xalqı Hüseyn Cavid kimi böyük şəxsiyyətlər yaratmışdır. Azərbaycan öz müstəqilliyini bundan sonra da qoruyacaq, müharibə də qurtaracaq, torpaqlarımız da hamısı özümüzə qayıdacaq, Azərbaycan xalqı yeni mərhələdə onun daxilində olan böyük imkanları, böyük mənəviyyat potensialını bütün dünyaya nümayiş etdirəcəkdir...*

*... Bu dünya heç kim üçün, heç kəs üçün əbədi deyil. Hüseyn Cavid öz həyatı dövründə yaratdığı mənəvi, mədəni sərvətlərlə özünü əbədiləşdirib. Bizim üçün Hüseyn Cavidin yaratdığı əsərlər daimi mədəniyyət, mənəviyyat, əxlaq mənbəyidir. Onun qədər bu barədə, bu dövrdə, XX əsrdə dərin mənalı, yüksək fəlsəfəyə uyğun əsərlər yaradan olmayıb. Bu əsərlər indi bizim üçün daha da lazımdır. Azərbaycanın indi müstəqil dövlət kimi, Azərbaycan xalqının azad bir millət kimi inkişaf etməsi üçün biz Hüseyn Cavidin əsərlərini oxumalıyıq... Orada biz bugünkü həyatımızda baş verən problemlərin cavabını tapa bilərik...”.*

**Hazırladı: V.Orxan**

***(davamı var)***

# Rəqs sənətimizin ustadları

## Prezident təqaüdünə layiq görülən iki xoreoqraf-pedaqoqla söhbət

Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyevin bu ilin 6 may tarixində imzaladığı sərəncamla Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə bir sıra sənət adamları Prezidentin fərdi təqaüdünə layiq görülüblər. Bu siyahıda rəqs sənətinin inkişafında mühüm xidmətləri olan müəllim-xoreoqraflar – Xalq artisti Yusif Qasımov və Əməkdar müəllim Pellumb Aqalliyayın da adları var. Onlarla görüşmək üçün Bakı Xoreoqrafiya Akademiyasına gəlirik. Akademiyanın binasına daxil olar-olmaz xoş mənzərə bizi cəlb edir. Xüsusi geyimdə olan şagird və tələbələr, uşaqları gözləyən valideynlərin övladlarına qayğısı diqqətimi çəkir. BXA-nın mətbuat xidmətinin rəhbəri Zeynəb Əkbərlə Pellumb müəllimlə görüşmək üçün yuxarı mərtəbəyə qalxırıq. Budur, məşq zalı, su sonası qızlarımız müəllim heyəti ilə məşq prosesində. Xoreoqraf bizi görüb məşqi dayandırmaq istəsə də, mane olmuruq. Xoreoqrafik obrazları izləmək ruhumuza dinclik verir. Onu da qeyd edim ki, bu il Pellumb Aqalliyay üçün xüsusilə əlamətdardır. Həm 80 illik yubileyini qeyd edir, həm dövlət başçısının fərdi təqaüdünə layiq görülüb, həm də Azərbaycanda pedaqoq kimi fəaliyyətə başlamasının 30 illiyidir.
Fasilə yaranan kimi söhbətə başlayırıq.

## Pellumb Aqalliyay: "Otuz ildən sonra yenidən Bakıya gəldim və buradan ayrıla bilmədim"

*– Prezident təqaüdünə layiq görülmək xəbərinizi necə qarşıladınız?*

– Bu, mənim həyatımın ən xoşbəxt günlərindən biri idi. Mən 30 ildir Azərbaycanda çalışıram və rahat yaşayışım üçün hər bir şəraitim var. Prezident təqaüdünə layiq görüldüyümə görə sonsuz minnətdarlıq hissi ilə, var gücümlə çalışacaq və bundan sonra da yaxşı tələbələrin və əsərlərin ortaya çıxması və yetişməsi üçün böyük əmək sərf edəcəyəm.

*– Bir qədər özünüz barədə danışardınız.*

– 1943-cü ilin 27 dekabrında Albaniyada, paytaxt Tiranada doğulmuşam. Evin ən kiçik övladı olmuşam. Qardaşlarım idman üzrə dünya çempionları idilər. Mən isə fiqurlu konkisürmə ilə məşğul idim. Bir gün Moskvada oxuyan tələbələr gəldilər ki, bəs balet məktəbinə sənəd qəbulu başlayır. Beləcə, məndə maraq yarandı və taleyim bu sahə ilə bağlandı. 1959-cu ildə tələbə mübadiləsi proqramı əsasında Bakı Xoreoqrafiya Məktəbində təhsil almağa başladım. Qəmər



Almaszadədən dərs alırdım. İki il burada oxuduqdan sonra Albaniya ilə SSRİ arasında münasibətlər pozulduğundan biz Albaniyaya qayıtmağa məcbur olduq. 1993-cü ildə yenidən Bakıya gəldim. Tale belə gətirdi ki, mən Azərbaycana pedaqoq kimi dəvət olundum. Bir sinif götürdüm, başladım yeni əsərlər qoymağa. Tələbələrimlə Qara Qarayev, Xəyyam Mirzəzadə, Tofiq Bakıxanovun əsərlərini səhnələşdirdim. Çoxsaylı dövlət konsertlərində həm solo, həm də kollektiv rəqslərə quruluş verdim. Paralel olaraq Akademik Opera və Balet Teatrında da çalışdım.

*– Tələbələriniz arasında tanınmış adlar varmı?*

– Çox sevinirəm ki, hazırda tələbələrim sırasında Əməkdar artistlər var. Onlardan BXA-nın tədris işləri üzrə prorektoru, rektor vəzifəsini müvəqqəti icra edən Əməkdar artist Nailə Məmmədzadənin, Makar Ferştandtın, hazırda xarici səhnələrdə çalışan Ülvi Əzizovun adlarını çəkə bilərəm. Moskvada Böyük Teatrda çalışan tələbələrim də var. Hazırda isə çox istedadlı tələbələrim yetişir. Azərbaycanda pedaqoq kimi çalışdığım müddətdə 12 buraxılış sinfim olub.

*– Bakıya dəvət alana kimi ölkənizdə bu sahə ilə məşğul idiniz?*

– Bəli, Albaniya Balet Teatrının aparıcı balet ustası idim. Albaniyanın üç dövlət mükafatına layiq görülmüşəm. Aparıcı solist kimi alban baletinin bütün repertuarını və eləcə də digər quruluşları oynamışam. Eyni zamanda çoxsaylı qastrol səfərlərim olub. Avropanın, demək olar ki, bütün balet səhnələrində çıxışlar etmişəm.

*– Vətəndən ayrılıb Bakıya gəldiyinizə görə nə vaxtsa, heyfsiləndiyiniz anlar olubmu?*

– Düzünü desəm, heç vaxt. Bizim qayda-qanunlar, ənənələr oxşardır. Həyat yoldaşım bir müddət əvvəl rəhmətə gedib. Bizim Bakıya gəlişimizə qədərdə burada çoxlu dostlarımız var idi. Azərbaycandakı dostlarım Albaniyadakından daha çoxdur. Ora gedəndə Bakı üçün darıxıram. Bakıda olanda bəzən Albaniya üçün. Azərbaycan mənim öz evimdir. Burada insanlar çox yaxşıdır. BXA-nın kollektivi də eləcə. Opera və Balet Teatrının kollektivi də mənə qarşı həmişə yaxşı olub. Onu da deyim ki, 1993-cü ilin avqustunda Bakıya gəldim. 30 ildə burada çox şey dəyişib. Bu məktəbdə 33 alban tələbə oxuyub, eləcə də mənim oğlum. Vaxtilə burada təhsil alan tələbələr indi Bakıya gələndə dəyişiklik və inkişafı görüb çox təəccüblənirlər. Mən 1994-cü ildə Bakıda imzalanan "Əsrin müqaviləsi"nin Azərbaycan üçün böyük yol açdığını deyərdim. O zaman biz proseslərin necə olacağı barədə düşünürdük. Bu gün isə bu addımın ölkəmiz üçün nə dərəcədə əhəmiyyətli olduğunun şahidi oluruq.

*– Oğlunuz hazırda harada fəaliyyət göstərir?*

– O, burada təhsil aldıqdan sonra iki il Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında çalışdı. Qastrol səfərlərində də iştirak etdi. Hazırda Albaniyada yaşayır, müasir rəqs və baletlə məşğuldur.

*– Albaniya və Azərbaycan mədəniyyətinin oxşar cəhətləri hansılardır?*

– Albaniyada da bir çox rəqslərə quruluş vermişəm. Çalışıram hər zaman işlədiyim əsərin və mövzunun ideyasını düzgün verim. Kosovoda olduğum zaman mən hətta Fikrət Əmirovu tanıyan insanlarla rastlaşdım. Biz onun "Şur" əsərində bəzi xalqlar arasında oxşar cəhətlərin ifadəsini görürük. Deməzdim ki, bəstəkar bu məqamları oradan götürüb. Sadəcə, xalqlar arasında oxşar cəhətlər var. Fikrət Əmirovun "Alban mövzularında süita", Qara Qarayevin "Alban rapsodiyası" əsərləri var. "Alban rapsodiyası"nda bəstəkar Albaniyanın şimalında yaşayan xalqdan bir nümunə götürərək bu mövzunu daha da genişləndirib. Bu, çox maraqlıdır.

*– Bir qədər də Xoreoqrafiya Akademiyasının bugünkü fəaliyyəti barədə danışaq...*

– Hazırda akademiyaya tələbəm rəhbərlik edir, pis deyə bilmərəm (gülür). Akademiyada çox çətinliklərimiz olub. Klassik proqram, demək olar ki, yox olmuşdu. Klassik balet zəifləmişdi. Bu gün inkişaf var. İnanıram ki, bundan da yaxşı olacaq. Nə qədər burada güclü tələbələr yetişəcək, o qədər də Opera və Balet Teatrında güclü kadrlar çalışacaq. Orada da, demək olar 98 faiz mənim tələbələrim çalışır. İtaliyada, Hollandiyada və Yunanıstanda çalışan çoxsaylı yüksək göstəricilərə malik tələbələrim var.

***

Söhbətimizin sonunda sənətkarın xoreoqraf-pedaqoqluğundan savayı maraqlı hobbisinin də olduğunu öyrəndik. O həm də gözəl rəsmlər çəkirmiş. Azərbaycan balet sənətinin əfsanələrindən olmuş Qəmər Almaszadənin BXA-nın foyesində asılan portreti də onun əl işidir. Bu əsər Pellumb müəllimin vaxtilə ona dərs demiş sənətkara ehtiramı kimi qiymətlidir. Xoreoqraf bəzən quruluş verdiyi əsərlərin dekorasiya və geyimlərinin eskizlərini də özü hazırlayır.

## Yusif Qasımov: "Dövlət Rəqs Ansamblı ilə 80-dən çox ölkədə çıxış etmişəm"

Pellumb müəllimlə sağollaşıb milli rəqs musiqisinin sədası gələn auditoriyaya yaxınlaşırıq. Xalq artisti, BXA-da Milli rəqs kafedrasının baş müəllimi Yusif Qasımov da tələbələri ilə məşq edir. Milli rəqs havalarımızın sədaları altında gənc rəqqaslar başlarını və qamətlərini dik tutaraq igid, qəhrəman Azərbaycan kişisi obrazında cövlan edirlər. Yusif müəllim deyir ki, onlar artıq ansambllarda rəqs etmək imkanı olan, texnikadan da irəli getmiş tələbələrdir.

*– Yusif müəllim, onda, belə demək mümkünsə, siz Dövlət Rəqs Ansamblı üçün hazır kadrlar yetişdirirsiniz?*

– Bəli, fəxrlə deyə bilərəm ki, Dövlət Rəqs Ansamblının və Mahnı və Rəqs Ansamblının oğlan rəqqaslarının 95 faizi mənim tələbələrimdir. O tələbələrin arasında 16 nəfər fəxri ada layiq görülüb. 4 nəfər isə Prezident mükafatçısıdır. Yeni tələbələr burada yaxşı yetişir, təhsil alırlar. Özfəaliyyətlə, akademiyadakı təhsil arasında böyük fərq var. Qədim rəqs sənətimizin, rəqqaslarımızın davamçılarını yetişdiririk. Mən hər zaman rəqsdən danışanda "Azərbaycan milli rəqsi" ifadəsini işlədirəm. Çünki milli rəqs Azərbaycanın adət-ənənələrini təbliğ edən rəqsdir. "Azərbaycan milli rəqsi" deyəndə hər bir xoreoqrafın öz yanaşması və düşüncəsi ilə quruluş verdiyi rəqslər nəzərdə tutulur. Bura "Şalaxo", "Məhsul", "Çobanlar", "Nəlbəki", "Turacı" və s. rəqslər daxildir. Azərbaycan milli rəqsinin inkişafı üçün sovet Azərbaycanına rəhbərlik edən Ulu öndər Heydər Əliyevin böyük xidmətləri var. 1970-ci ildə Azərbaycan Dövlət Rəqs Ansamblının yaradılması və aktiv fəaliyyətə başlaması da onun bilavasitə diqqət və qayğısı ilə olmuşdur. Bu gün biz bunun müsbət nəticələrini görürük. Rəqsimiz bütün dünya səhnələrində ifa olunur. Mən Dövlət Rəqs Ansamblı ilə 80-dən çox ölkədə Azərbaycan milli rəqsini təmsil etmişəm. Bu gün yeni-yeni kadrlar yetişir. Fəxr edirik ki, əziyyətimiz hədər getmir, layiqli davamçılar yetişdiririk.

*– Bu il həm də sizin 75 illik yubileyinizdir. Prezident təqaüdünə layiq görülməyiniz də bu yubileyə layiqli bir hədiyyə oldu...*

– 2008-ci ildən, Dövlət Rəqs Ansamblında baş baletmeyster işlədiyim dövrdən Prezident mükafatına layiq görüldüm. 14 il bu mükafatı aldım. Çox şadam ki, bu il məni Prezident təqaüdünə layiq gördülər. Bu mükafatı təkcə mənə deyil, bütün rəqs sənətimizə, akademiyaya göstərilən qayğı kimi qəbul edirəm. Bu yaşda belə bir diqqət bizim üçün stimuldur. İnsan daha da çox işləmək və yaratmaq istəyir. Buna görə də ölkə rəhbərliyimizə, Mədəniyyət Nazirliyinə minnətdarlığımı bildirirəm. Təqaüd xəbərini alan gün təbriklərin sayı-hesabı yox idi.

*– Neçə ildir rəqslərimizi tədris edirsiniz?*

– Ümumilikdə 55 ildir rəqs sənətindəyəm. 45 ilini Dövlət Rəqs Ansamblında, onun da bir ilini Dövlət Mahnı və Rəqs Ansamblında çalışmışam. 1961-ci ildə keçmiş Pionerlər evində Xalq artisti Böyükağa Məmmədovun rəqs dərnəyinə gedirdim. 1966-1967-ci illərdə respublikada keçirilən rəqs müsabiqələrinin qalibi oldum. O vaxt münsiflər heyətində rəqs sənətimizin görkəmli nümayəndəsi Əlibaba Abdullayev, Niyazi, Tofiq Quliyev, Qəmər Almaszadə təmsil olunurdu. 1967-ci ildə Moskvada keçirilən sosialist ölkələri arasında rəqs müsabiqələrinin birinci dərəcəli laureatı oldum. Bundan sonra Əlibaba müəllim məni Mahnı və Rəqs Ansamblına dəvət etdi. 6-7 ay orada çalışdıqdan sonra 6 il Rusiyada fəaliyyət göstərdim. 1974-cü ildən Azərbaycan Dövlət Rəqs Ansamblına dəvət alıb burada çalışmağa başladım. Bu yerdə maraqlı bir xatirəni danışım. 1981-ci ildə Moskvada böyük bir tədbirə hazırlaşırdıq. Ulu öndər hələ SSRİ rəhbərliyinə getməmişdi. Biz hər gün səhərdən axşama kimi indiki Heydər Əliyev Sarayında məşq edirdik. Ulu öndər də hər axşam saat 10-da gəlib məşqi izləyirdi. Bir gün dedilər ki, Heydər Əliyev gəlməyəcək, məşqi bitirin. Paltarımızı dəyişib getməyə hazırlaşırdıq, xəbər etdilər ki, Heydər Əliyev gəldi. Maraqlı bu idi ki, hətta ansambl üçün kostyum tikən fabrikin əməkdaşlarının bütün cihaz və ləvazimatlarını da gətirib sarayda quraşdırmışdılar ki, iş ləngiməsin. Tez hamı geyindi mən rəqs paltarımı geyinməyə vaxt tapmadım. Solo ifa edirdim. Şəxsi geyimdə çıxdım səhnəyə. Niyazinin dirijorluğu ilə rəqsə başladım. Məşq bitdi, gəldilər ki, səni çağırırlar. Ulu öndər məni yanına çağırıb dedi ki, sən istedadlı oğlansan. Sənə niyə ayrıca kostyum tikmirlər? Sənə xüsusi ağ rəqs kostyumu tiksin-



lər. Beləcə, həmin konsertə mən xüsusi geyimdə çıxdım. Ulu öndər insanlara diqqətlə yanaşırdı, onların rifahını yaxşılaşdıranda sevinirdi. Sənətkarların zəhmətini hər zaman qiymətləndirib və mədəniyyətimizə hər zaman diqqətlə yanaşıb. 1982-ci ildə Ulu öndər mənə "Əməkdar artist" fəxri adı verdi. 2005-ci ildə akademiyada bildirildi ki, Ulu öndərə həsr olunmuş bir kompozisiya hazırlamaq lazımdır. Mən çox şadam ki, bu kompozisiyanı mənə tapşırdılar və sanki onun ruhu qarşısında bir vəfa borcumu yerinə yetirdim.

*– Akademiyada milli rəqslərimizin tədrisi sizi qane edirmi?*

– 1991-ci ildən Xalq artisti Leyla Vəkilovanın dəvəti ilə burada milli rəqs üzrə müəllim işləyirəm. Bəzən sənətə lazımsız insanlar da gəlir, sənət təhsilində axsama olur. Biz həmişə çalışmışıq sənəti qoruyaq. Son iki ildə sırf sənətlə məşğuluq. Klassik rəqs də, milli rəqs də inkişaf edir.

*– Rəqs sənətimizə dair tədris vəsaitləri ilə bağlı vəziyyət necədir?*

– Akademiya yaranandan sonra çoxsaylı proqramlar yazıldı. Həmin proqramlardan bir neçəsini, eləcə də metodiki tövsiyələr yazmışam. Milli rəqslərimiz haqqında məqalələrim də dərc olunub. Gördüyünüz bu divar dəzgahı milli rəqsdə heç zaman olmayıb. Məşqlər həmişə orta hissədən başlayıb. Klassikada şagirdlər divar dəzgahı yanında qızışma hərəkəti edib sonra başlayırlar əsas rəqsə və mərkəz hissəyə. İlk dəfə burada tətbiq etməyə başladıq. Dərs dediyim müddətdə tələbələrim 16 beynəlxalq müsabiqədə iştirak edib, onun 14-də birinci yer, ikisində Qran-pri qazanmışıq. İşlərimiz hədsiz çoxdur, yeni dayanmadan çalışırıq.

***

Yusif müəllimlə söhbətimizi başa vurub BXA-dan çıxmaq istəyirik. Pilləri enərkən ağ göyərçinlərə bənzəyən kiçikyaşlı qız və oğlanlarla rastlaşırıq. Onların hər biri rəqs sənətimizin sabahıdır və hər iki korifey rəqqas da onların parlaq gələcəyi üçün çalışır. Yetirmələrinin uğurlarını həm özləri görür, həm də yeni nəsillər görəcək. Hər iki sənətkarımıza cansağlığı və pedaqoji fəaliyyətlərində uğurlar arzulayırıq.

**Lalə Azəri**

# Ulu öndərin mədəniyyətə bağlı irsinin məcmusu

## "Heydər Əliyev və musiqi mədəniyyəti" kitabı haqqında qeydlər

2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi silsilə mədəni tədbirlər, müsabiqə və festivallarla yanaşı, müxtəlif nəşr layihələrinin də həyata keçirilməsinə zəmin olub. Bu günlərdə Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) təqdimatı keçirilən "Heydər Əliyev və musiqi mədəniyyəti" kitabı da belə layihələrdən biridir.



Əlbəttə, belə bir kitabın illər əvvəl yaranması zəruri idi, ancaq nə xoş ki, o məhz bu il, Ümummilli lider Heydər Əliyevin 100 illiyində hazırlanıb və nəşr edilib. Bu işin ərsəyə gəlməsində layihənin rəhbəri ABİ-nin sədri Xalq artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadənin rolunu xüsusilə qeyd etməliyik. Kitabın tərtibatçı-müəllifi musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızıdır.

Bu yerdə bir məqama diqqəti çəkmək istərdim. İki il öncə, 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 60 illik yubileyinə həsr olunmuş "İlham Əliyev və musiqi mədəniyyəti" adlı kitab işıq üzü görmüşdü. Bu kitabın da ideya rəhbəri, məsləhətçisi Firəngiz Əlizadə, tərtibatçısı isə Səadət Təhmirazqızı idi.

"Heydər Əliyev və musiqi mədəniyyəti" kitabının ilk səhifələrində Prezident İlham Əliyevin sitatı ilə rastlaşırıq: "Heydər Əliyevin ideyaları yaşayır, onun siyasəti yaşayır, onun fəlsəfəsi, ideologiyası yaşayır və onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır və onun yolu ilə inkişaf edir".

Doğrudan da, mədəniyyətin, xüsusilə də incəsənətin hansı sahəsindən danışırıqsa danışaq, orada Heydər Əliyevin rolu və əhəmiyyəti əvəzsiz və müstəsnadır. Dövlətçilik tariximizdə parlaq səhifə açan Heydər Əliyev görkəmli dövlət xadimi, müdrik siyasətçi olmaqla yanaşı, həyatı boyu mədəniyyətə xüsusi sevgi və məhəbbətlə yanaşıb. Onun bu sözləri də, əslində, mədəniyyətə verdiyi dəyərin göstəricisidir: "Xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu var, ancaq xalq həmişə mədəniyyəti ilə, elmi ilə tanınıb".

Kitabı vərəqlədikcə onun mədəniyyətimizin inkişafı üçün gördüyü işlərin nə qədər genişmiqyaslı olduğunu bir daha dərk edirik.

Kitabın bölmələri məntiqi ardıcıllığa əsaslanır. İlk bölmədə Firəngiz Əlizadənin "Gəncliyimizin parlaq xatirələrindən" adlı yazısı yer alıb. Bu xatirələrdə biz həm musiqini sevən, onu bütün varlığı ilə hiss edən, həm də musiqini mükəmməl bilən görkəmli şəxsiyyəti görürük.

Musiqişünas Səadət Təhmirazqızının "Dahi şəxsiyyətin ruhuna ehtiramla" adlı sərlövhəli yazısında Heydər Əliyev fenomeninin obrazı təqdim olunur.

Kitabın "Heydər Əliyev musiqi sənəti və musiqi xadimləri haqqında müdrik fikirləri" adlı hissəsində Ulu öndərin incəsənət xadimlərinə xüsusi qayğı, sevgi ilə yanaşmasının, musiqinin professional surətdə araşdırmağının bir daha şahidi oluruq. Burada biz onun nəinki ifaçılar, bəstəkarlar, həmçinin musiqi sənəti və janrları haqqında bir çoxu sitata çevrilmiş dəyərli fikirlərini oxuya bilirik.

"1969-1982-ci illərdə Heydər Əliyev və Azərbaycan musiqi mədəniyyəti" adlı hissədə Heydər Əliyevin respublikaya ilk rəhbərliyi dövründə sənət adamları ilə görüşləri, dostluq münasibətləri, daim problemləri ilə maraqlanması, onlara yaxından kömək etməsi, xüsusi dəstəyi əksini tapıb. Bu bölmədə Heydər Əliyevin Azərbaycan Bəstəkarlar İttifaqının V qurultayındakı proqram xarakterli çıxışını da xüsusilə qeyd etməliyik. Bu çıxış sonra "Bəstəkarın yüksək amalı və vəzifələri" başlığı altında nəşr edilmişdi. Kitabda həmin çıxış tam şəkildə oxuculara təqdim edilib.

Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hələ sovet dövründə Azərbaycanın bir sıra görkəmli şəxsiyyətlərinin ev-muzeylərinin yaradılmışdı. Bu xüsusda Üzeyir Hacıbəylinin, Niyazinin, Bülbülün və digərlərinin ev-muzeylərini də göstərə bilərik. Bu mövzu da, əlbəttə ki, kitabda diqqətdən kənar qala bilməzdi. "Heydər Əliyev və görkəmli mədəniyyət xadimlərinin ev-muzeyləri" başlığı altında biz yuxarıda sadaladığımız mövzuda geniş yazı ilə tanış ola bilirik.

Heydər Əliyevin siyasəti, Azərbaycan naminə gördüyü tarixi işlər, o cümlədən mədəniyyət və incəsənətimizə misilsiz diqqət-qayğısı müstəqillik dövründə öz zirvəsinə yetişdi. "1993-2003-cü illərdə Heydər Əliyev və Azərbaycan musiqi mədəniyyəti" bölməsində bu barədə ətraflı bəhs olunur.

"Sovet dövrünə aid tarixi sənədlər və fotoalbom", eləcə də "Ulu öndərin musiqi xadimləri ilə foto yadigarları" adlı hissələrdə biz bir çox tarixi anlara şahidlik edirik.

Heydər Əliyev daim müxtəlif konsertlərdə, yubiley gecələrində iştirak etmiş, bir-birindən maraqlı çıxışları ilə dinləyicilərin zövqünü oxşamışdı. "Yubileylər, məktublar", "Fərman və sərəncamlar", "Görüşlər", "Mükafat, orden və medallar" adlı bölmələrdə onun bu qəbildən bir çox çıxışları, söhbətləri ilə bir daha yaxından tanış oluruq.

Musiqiyə dərindən bağlı olan Heydər Əliyev fenomeni, onun obrazı bəstəkarlarımızın qələmindən də kənar qalmayıb. Bu bir çox bəstəkarlarımızın müxtəlif həcmli əsərlərində öz əksini tapıb. "Musiqidə əbədiləşən ömür" sərlövhəsi altında belə əsərlər və onların təhlilləri ilə tanış oluruq. Onların içərisində Cövdət Hacıyevin 8 saylı "Onu zaman seçib" adlı simfoniyası, Arif Məlikovun "Əbədiyyət" simfoniyası, Firəngiz Əlizadənin "İthaf" əsəri, Oqtay Rəcəbovun "Heydər" oratoriyası, Ramiz Mustafayevin "Mənim müasirim" oratoriyası, Sərdar Fərəcovun "Böyük vətəndaş haqqında oda" və s. nümunələri qeyd edə bilərik.

Kitabı oxuduqca mövzudan mövzuya axarlı keçid, hər bölmə və ya bölmələr arasında Səadət Təhmirzaqızının maraqlı, publisistik, eyni zamanda elmi üslubda yazı-qeydləri oxucuya zövq verir. Bu sadəcə, bir tərtibatçılıq, sənədlərin, çıxışların və s. toplanılması deyil, Ulu öndər Heydər Əliyevin bizə bəxş etdirdiyi fundamental irsin zəngin məcmusudur.

**Leyla Zöhrabova**
**sənətşünaslıq üzrə elmlər doktoru, dosent**

# Violin ifaçılarının müsabiqəsi

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası (BMA) "Heydər Əliyev İli" çərçivəsində bəstəkar, Xalq artisti, professor Azər Dadaşovun əsərlərinin ən yaxşı ifasına görə respublika violin ifaçılarının müsabiqəsini elan edib.

BMA-dan verilən məlumata görə, iki mərhələdən ibarət olacaq müsabiqə noyabrın 27-28-də keçiriləcək. Müsabiqədə iştirak üçün yaş məhdudiyyəti yoxdur. İştirak etmək istəyənlər ərizəni və birinci tur üçün ifa proqramını noyabrın 20-dək BMA-ya təqdim etməlidirlər.

Müsabiqənin təşkilat komitəsinin və münsiflər heyətinin sədri BMA-nın rektoru Xalq artisti, professor Fərhad Bədəlbəylidir.

Müsabiqənin birinci turunun proqramına Azər Dadaşovun violin və fortepiano üçün əsərlərindən ("Ariya", "Xocalı ağrısı", "Zəriflik", "Həmd-Səna", "Noktürn", "Tokkata", "Skertso", "Qəmli rəqs") ikisinin ifası daxildir.

İkinci turun mütləq proqramında isə bəstəkarın violin və kamera orkestri üçün üç əsəri ifa olunmalıdır: Ümummilli lider Heydər Əliyevə həsr olunmuş "Poema", "Adagietto və Skertsino".

Qaliblərə pul mükafatları və diplomlar təqdim ediləcək: I yer – 1000 manat (1-ci dərəcəli diplom); II yer – 700 manat (2-ci dərəcəli diplom); III yer – 400 manat (3-cü dərəcəli diplom).

Məlumat üçün: (012) 493 06 22

# Tələbələrin məktəb-studiya şagirdləri ilə açıq dərsləri





Elmin bütün sahələrinin təməli təlim-tədrisdən başlayır. Azərbaycan professional musiqi təhsilinin təməli isə bizlərə Üzeyir Hacıbəylidən miras qalmış Bakı Musiqi Akademiyasında (BMA) qoyulub. Bu tədris ocağı dünya səhnəsini fəth edən görkəmli musiqiçilər yetirib. Hər bir tanınmış musiqiçinin keçdiyi məktəb xatırlanır, onun haqqında bir fikir söyləyir. 100 yaşlı musiqi pedaqogikamızın tarixindən gəlib keçmiş Mayor Brenner, Georgi Şaroyev, Vladimir Kozlov, Lidiya Yeqorova, Regina Siroviç, Kövkəb Səfərəliyeva kimi müəllimlərin məktəbləri bu gün davam etməkdədir.

Bu məktəbin uğurlu nümayəndələrindən biri – mərhum Tərlan Seyidovun (1943-2023) təlim-tədrisə verdiyi dəyər hər kəsə məlumdur. Onun təşəbbüsü, zəhməti ilə yaradılan Orta ixtisas musiqi məktəb-studiyası BMA tələbələrinin pedaqoji təcrübə məkanı kimi də xüsusi əhəmiyyət daşıyır. Məktəb-studiyada tələbələrin pedaqoji təcrübə dərsləri daima diqqət mərkəzində saxlanılır, eyni zamanda müxtəlif konsert və tədbirlərə cəlb olunaraq səhnə fəaliyyətinə geniş yer verilir.

Tələbələr təhsil illərindən pedaqogika elmi ilə tanış olur və ilk təcrübələrini məktəb-studiya şagirdləri ilə həyata keçirirlər. Burada onlar müəllimlərindən əxz etdiyi metodika və özlərində formalaşdırdığı yeni texnikaları ilə fəaliyyətə başlayırlar. Bu proseslər məktəb-studiya şagirdləri üçün nə qədər əhəmiyyətli olsa da, tələbələr üçün müəllimlik peşəsinin məsuliyyətini anlamasında daha vacib anlardır.

Bu günlərdə (31 may) BMA-nın Metodika və xüsusi pedaqoji hazırlıq kafedrası tələbələrinin məktəb-studiya şagirdləri ilə açıq dərslərini izlədik.





Klarnet ixtisası üzrə Anar Məmmədovun 2-ci kurs tələbəsi Namiq Səlimov məktəb-studiyanın 1-ci sinif şagirdi Kənan Həsənliyə (müəllim: F.Məmmədov) V.A.Motsartın "Allegretto" əsərini keçir. Asta tempdə əl çalaraq şagirdi üçün səslərin düzgün ölçüsünü anlamasına və əsərin ritmini saxlamasına kömək edir. Bu anda kafedra müdiri professor Elnarə Məmmədova tələbəyə şagirdində ritm hissiyyatının formalaşması üçün metronomdan istifadəni tövsiyə edir. Sonra isə tələbə alətin düzgün şəkildə əldə tutulma qaydasını şagirdinin hələ də mənimsəməkdə çətinlik çəkdiyi kiçik nüansları izah edir. Əlbəttə, 1-ci sinif şagirdinin, ilk növbədə, aləti düzgün tutmasına nail olmaq vacib şərtdir. Tələbə sinfinə görə proqramı düzgün seçib, ritm hissiyyatı isə tədricən formalaşa bilər.

Fortepiano ixtisası üzrə dosent Nərgiz Əlizadənin 2-ci kurs tələbəsi Hidayət Sadıqbəyli 2-ci sinif şagirdi Sabir Rüstəmxanlıya (müəllim: Nərminə Əliverdizadə) Y.Baraxtinanın Paqanini mövzusuna "Variasiyalar" əsərini keçərkən öncə variasiya forması ilə bağlı məlumat verir, kiçik motivlər üzərində işləyərkən vurğunun düzgün düşməsinə çalışır. Şagird əsəri artıq əzbər öyrənib, bu halda müəllim asanlıqla əsərin istənilən yerində saxlayıb hər bir nüans üzərində – dinamika, səslərin bərabər ardıcıllığı, hətta 2-ci barmağının düzgün istifadəsinə nail olmaq üçün öz ifasını göstərməklə işləyir.

Fortepiano ixtisası üzrə dosent Mədinə Tuayevanın 2-ci kurs tələbəsi Əli Adıgözəlov isə violin ixtisası üzrə 7-ci sinif şagirdi Yusif Məmmədliyə "Ümumi fortepiano" fənnində Sevda İbrahimovanın "Evləri var xana-xana" Azərbaycan xalq mahnısı işləməsini öyrədir. Tələbə özünü səhnədə daha sərbəst, müəllim kimi hiss edir. Bu onun açıq dərsə hazırlıqlı olmasından irəli gəlir. Öncə özünü və şagirdini təqdim etdikdən sonra öyrətdiyi mahnının bəstəkarı haqqında və mahnının xarakteri ilə bağlı qısa, vacib məlumatı diqqətə çatdırır. Dərs zamanı Əli Adıgözəlovun öz ifası ilə başlayan xalq mahnısının ansambl işləməsi dinləyicilərdə xoş əhval yaradır. Milli mahnımızın oxunaqlı ifasını əldə etmək üçün müxtəlif yolları izah edən tələbə-müəllimin əsərin ruhunu dərinliklərinə qədər duyduğunu hiss edirik. Violin sinfinin şagirdi Yusif Məmmədlini isə fortepianoda sərbəst ifasına görə alqışlayırıq.

Zərb alətləri ixtisası üzrə Firuz Hüseynovun 2-ci kurs tələbəsi Kamil Hüseynzadə 6-cı sinif şagirdi Rüfət Məmmədova (müəllim: F.Hüseynov) marimba alətində D.Şostakoviçin "İspan rəqsi" əsərini keçir. Tələbə alətin tarixindən, vətənindən və quruluşundan söz açdıqdan sonra onun simfonik orkestrdə rolunu qeyd edir. Nota nəzər yetirdikdə isə öncə əsərin ölçüsü, tempi ilə bərabər onun solo və yaxud müşayiət üçün yazılmasına diqqət yetirir. Geniş izahlı, açıq dərs sayəsində marimba alətində liqanın və müxtəlif texniki səhvlərin üzərində işin necə aparılması ilə tanış oluruq.

Violin ixtisası üzrə Nairə Qulamovanın 2-ci kurs tələbəsi Səriyyə Nəsibova 10-cu sinif şagirdi Fatimə Tapdıqovaya (müəllim: M.Aslanova) Ç.Viottinin "№ 22 konsert"inin I hissəsini keçir. Təcrübəçi tələbə bəstəkarın yaradıcılığına nəzər salaraq, burada konsert janrının üstünlüyünü söyləyir. Əsəri başlamazdan öncə temp, ölçü kimi vacib nüanslara diqqət ayırır. S.Nəsibova dərs zamanı öz ifasında əsərin texniki çətinliklərinin aradan qaldırılması ilə yanaşı, emosional təsirinin göstərilməsi üsullarında dinamikanın əhəmiyyətini nümayiş etdirir.

Dərs prosesinin açıq, geniş auditoriya qarşısında keçirilməsi təcrübəçi tələbələrin və məktəb-studiya şagirdlərinin yaradıcı potensialını daha da inkişaf etdirir.

**Tutu Hüseynova**
**BMA-nın Orta ixtisas musiqi məktəb-studiyasının müəllimi, musiqişünas**

# Sənət yolunda uğurlu qədəmlər

Çağdaş dövrümüzdə incəsənətin inkişaf etməsi, yeni nəsillərin formalaşması üçün, sözsüz ki, peşəkarlardan faydalanmaq lazımdır. Müəllimlərinin böyük dəstəyi ilə bu gün həvəslə yaradıcılığa uğurla qədəm qoyan və çalışan gənclərimiz çoxdur. Gənc istedad Yusif Yaşar da onlardan biridir.



Yusif Yaşar 2009-cu ildə Bakıda anadan olub. İlyas Əfəndiyev adına Elitar gimnaziyanın şagirdidir. Hazırda 8-ci sinfi bitirən Yaşarın təsviri sənətə marağı kiçik yaşlarından başlayıb. Valideynləri 2017-ci ildə onu rəssam Nəvai Mətinin rəhbərlik etdiyi "Sedet Art" kursuna yazdırırlar. Bu kursda o, rəsm qabiliyyətini inkişaf etdirərək müxtəlif sərgi və müsabiqələrə qatılır. Misal olaraq, Vətən müharibəsində tarixi Qələbəmizə həsr olunmuş "Zəfərimiz uşaqların gözü ilə", Azərbaycan-Qırğızıstan diplomatik əlaqələrinin 30 illiyinə həsr olunmuş "Qırğızıstan Azərbaycan rəssamlarının gözü ilə", eləcə də 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü, 1 iyun – Beynəlxalq Uşaqların Müdafiəsi Günü, 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə sərgilərdə diplom, sertifikat və mükafatlara layiq görülməsini qeyd etmək olar.

Yusif Yaşar 2022-ci ildə Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Vətənlə döyünən ürək" adlı sərgidə də fəxri fərmanla təltif olunub. Müəllimləri Təranə Musayevanın təşəbbüsü, Nəvai Mətinin dəstəyi ilə 2021-ci ildə onun "Rəngli dünyam" adlı ilk fərdi sərgisi də keçirilib. Bu günlərdə rəssam-pedaqoq Təranə Musayevanın təşəbbüsü, məktəbin direktoru Səadət Cahandarovanın dəstəyi ilə Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Zəfər yolu" adlı ikinci fərdi sərgisi də böyük marağa səbəb oldu.

Rəssam-pedaqoq Təranə Musayeva digər şagirdləri kimi Yusif Yaşarın da rəssamlıq sahəsində professional yetişməsi üçün səylərini əsirgəmir. Elə müəlliminin dəstəyi ilə mayın 14-də onun Tahir Salahovun Ev-Muzeyində sayca 3-cü fərdi sərgisi keçirildi. Gənc rəssamın tarixi Zəfərimizlə əlaqədar 44 əsərinin nümayiş olunduğu sərgi ilə tanış olan hər kəs ona yeni uğurlar arzu etdilər. Biz də bu arzulara qoşuluruq.

**Ziyarət Cabarova**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının əməkdaşı, sənətşünas**

# Musiqi sənəti istiqaməti üzrə test imtahanı

İyunun 11-də Dövlət İmtahan Mərkəzi tərəfindən ali təhsil müəssisələrinin qabiliyyət tələb edən musiqi sənəti istiqaməti üzrə ixtisasların harmoniya və solfecio, musiqi nəzəriyyəsi və solfecio fənləri üzrə test imtahanı keçiriləcək.

DİM-dən verilən xəbərə görə, imtahan Bakı, Gəncə və Naxçıvan şəhərlərində təşkil olunacaq. İmtahanda 1072 abituriyentin iştirakı nəzərdə tutulur. Harmoniya və solfecio fənni üzrə imtahanın müddəti 1 saat 30 dəqiqədir. Musiqi nəzəriyyəsi və solfecio fənni ilə bağlı imtahanın müddəti isə 1 saatdır.

Harmoniya və solfecio, musiqi nəzəriyyəsi və solfecio fənlərinin hər biri üzrə iştirakçılara 30 qapalı tipli tapşırıq təqdim olunur. Qiymətləndirmə fənlərin hər biri üzrə 10 ballıq şkalada aparılır.

# ADMİU-da növbəti "Pillə"

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) 100 illik yubileyi münasibətilə 5-9 iyun tarixlərində "Pillə 2" Tələbə Tamaşaları Festivalı keçiriləcək.




Festivalın proqramına ADMİU-da aktyor və rejissor sənəti ixtisası üzrə təhsil alan tələbələrin tamaşaları ilə yanaşı, Bakı Dövlət Universiteti tələbələrinin hazırladığı "Yarımçıq qalmış" tamaşası da daxildir.

Qaliblər peşəkar teatrşünasların, tənqidçilərin münsifliyi ilə müəyyənləşəcək. "Ən yaxşı tamaşa", "Ən yaxşı kişi rolu", "Ən yaxşı qadın rolu" və "Gənc ekspertlərin mükafatı" nominasiyaları üzrə mükafatlar təqdim olunacaq.

Festival tamaşalarının müzakirəsinə tələbə-teatrşünaslardan ibarət gənc ekspertlər qrupu da cəlb olunub. Festival haqqında ən yaxşı məqalə müəllifi olan tələbə də universitet tərəfindən mükafatlandırılacaq.

Artıq ənənə halını alan festival tələbələrin yaradıcılıq prosesinə daha sıx təşviq edilməsi, gənc istedadların aşkarlanması və teatr tədrisi prosesinin aktivləşdirilməsi məqsədi daşıyır.

## Xatirə təqvimi — 9–13 iyun

### Azərbaycan

**9 iyun 1930** – Əməkdar incəsənət xadimi, bəstəkar Telman Hacı oğlu Hacıyev (1930 – 5.1.1991) anadan olub. "Göygöl", "Lalələr", "Tələbəlik illəri" və s. populyar mahnıların müəllifidir.

**9 iyun 1960** – Tanınmış rəssam Ucal Həsən oğlu Haqverdiyev (1960-2004) Bakıda anadan olub. Əsərləri Fransa, Avstriya, Almaniya, Türkiyə və s. ölkələrdə sərgilənib.

**9 iyun 1984** – Naxçıvanda böyük şair-dramaturq Hüseyn Cavidin Ev-Muzeyi açılıb.

**9 iyun 1989** – Görkəmli müğənni, Azərbaycanın və SSRİ-nin Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Rəşid Məcid oğlu Behbudov (14.12.1915 – 1989) vəfat edib. "Arşın mal alan" (1945), "Bəxtiyar" (1955) filmlərində baş rollara çəkilib. Mahnı Teatrını yaradıb.

**9 iyun 2002** – Rusiyanın Sankt-Peterburq şəhərində dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin (heykəltaraş – Əməkdar rəssam Görüş Babayev) açılışı keçirilib. Mərasimdə Azərbaycan və Rusiya prezidentləri Heydər Əliyev və Vladimir Putin iştirak ediblər.

**9 iyun 2021** – Xalq artisti, aktyor, kinorejissor Ramiz Hacıağa oğlu Əzizbəyli (20.7.1948 – 2021) vəfat edib.

**10 iyun 1904** – Ədəbiyyatşünas, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, akademik Məmməd Arif (Məmməd Arif Məhərrəm oğlu Dadaşzadə; 1904 – 27.12.1975) anadan olub. Elmi tədqiqatlarla yanaşı, şeir və hekayələrin də müəllifidir.

**10 iyun 1910** – Əməkdar artist Anatoli Semyonoviç Urvantsev (1910-1971) anadan olub. Akademik Opera və Balet Teatrının balet artisti olub, Bakı Xoreoqrafiya Məktəbində dərs deyib.

**10 iyun 1933** – Xalq rəssamı Rafiq Mahmud oğlu Mehdiyev (1933 – 28.11.2009) Naxçıvan MR Şahbuz rayonunda anadan olub. Kitab və dəzgah qrafikası sahəsində çalışıb, həmçinin rəngkarlıq əsərlərinin müəllifidir.

**10 iyun 1938** – Şair, tərcüməçi Əli Vəkil (Əli Vəkil oğlu Səfiyev; 1938 – 7.1.2022) Ermənistanın Basarkeçər (indiki Vardenis) rayonunun Yuxarı Şorca kəndində anadan olub.

**10 iyun 1982** – Bakıda Azərbaycan professional vokal məktəbinin banisi Bülbülün Xatirə Muzeyi açılıb. Respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev mərasimdə iştirak edib.

**10 iyun 1983** – Xalq artisti, bəstəkar, dirijor, pedaqoq Səid Əli oğlu Rüstəmov (12.5.1912 – 1983) vəfat edib. "Beşmanatlıq gəlin", "Durna" və s. musiqili komediyaların, populyar mahnıların müəllifidir. Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri olub.

**10 iyun 1989** – Xalq şairi, dramaturq, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rüstəm (Süleyman Əliabbas oğlu Rüstəmzadə; 12.3.1906 – 1989) vəfat edib. Kitabları: "Gün o gün olsun ki...", "İki sahil", "Durna" (komediyalar), "Təbrizim", "Azərbaycana gəlsin" və s.

**11 iyun 1892** – Xalq artisti, opera müğənnisi Aleksandr Aleksandroviç Drozdov (1892 – 15.6.1968) Omskda (Rusiya) anadan olub. 1935-ci ildən Azərbaycan Opera və Balet Teatrında çalışıb. Azərbaycan Dövlət Konservatoriyasında dərs deyib.

**11 iyun 1913** – Görkəmli aktrisa, Azərbaycanın və SSRİ-nin Xalq artisti Hökümə Abbasəli qızı Qurbanova (1913 – 2.11.1988) Bakıda doğulub. 1938-ci ildən ömrünün sonunadək Akademik Milli Dram Teatrında çalışıb, xarakterik obrazların parlaq ifaçısı olub. "Almaz", "Onu bağışlamaq olarmı?", "İnsan məskən salır" filmlərində çəkilib.

**11 iyun 1923** – Əməkdar rəssam Mahmud Əzizağa oğlu Tağıyev (1923-2001) Bakıda anadan olub. Sovet tikililərini təsvir edən tabloların, portret janrında ("Dədə Qorqud", "Səməd Vurğun") əsərlərin müəllifidir.

**11 iyun 1998** – Prezident Heydər Əliyev görkəmli şair Mikayıl Müşfiqin 90 illik yubileyi haqqında sərəncam imzalayıb.

**11 iyun 2007** – Prezident İlham Əliyev "Qobustan Dövlət Tarixi-Bədii Qoruğu ərazisində yerləşən tarixi və mədəni sərvətlərin qorunması haqqında" sərəncam imzalayıb.

**11 iyun 2020** – Xalq artisti, xanəndə Teymur Ağaxan oğlu Mustafayev (10.4.1939 – 2020) vəfat edib. 1964-cü ildən Azərbaycan Dövlət Filarmoniyasının solisti olub.

**12 iyun 1928** – Xalq yazıçısı İsa Mustafa oğlu Hüseynov (Muğanna; 1928 – 1.4.2014) Qazax rayonunun Muğanlı kəndində (hazırda Ağstafa rayonu) doğulub. Tarixi və fəlsəfi romanları ("Məhşər", "Yanar ürək", "İdeal" və s.) yazıçıya böyük şöhrət gətirib. "Ulduzlar sönmür", "Tütək səsi", "Nəsimi" və s. filmlərin ssenari müəllifidir.

**12 iyun 1932** – Xalq artisti Hacıbaba Ağarza oğlu Bağırov (1932 – 4.10.2006) Bakıda anadan olub. 1962-ci ildən Musiqili Komediya Teatrında çalışıb, 1996-2006-cı illərdə teatra rəhbərlik edib. Çəkildiyi filmlər: "Ulduz", "Qanun naminə", "Onun bəlalı sevgisi", "Alma almaya bənzər" və s.

**12 iyun 1977** – Əməkdar artist Məmmədkəbir Hacı oğlu Kərimov (1906-1977) vəfat edib. Şəki Dövlət Dram Teatrının aktyoru olub.

**13 iyun 1927** – Tanınmış kamança ifaçısı, Əməkdar artist Tələt Soltan oğlu Bakıxanov (1927 – 30.5.2000) Bakıda anadan olub. "O olmasın, bu olsun" filmində çəkilib.

**13 iyun 1944** – Əməkdar artist, tanınmış arfa ifaçısı Çiçək Məmmədhüseyn qızı Rzayeva (1944 – 15.9.2021) Bakıda doğulub. 50 ildən çox Azərbaycan Dövlət Simfonik Orkestrinin birinci arfa ifaçısı olub.

**13 iyun 1993** – Əməkdar incəsənət xadimi, aktyor, rejissor Məmməd Əli oğlu Əlili (7.11.1898 – 1993) vəfat edib. "Ögey ana", "Dağlarda döyüş" və s. filmlərin 2-ci rejissoru olub, "Dəli Kür", "Nəsimi" filmlərində çəkilib.

**13 iyun 2000** – Prezident Heydər Əliyev dahi Azərbaycan alimi və mütəfəkkiri Nəsirəddin Tusinin 800 illiyi haqqında fərman imzalayıb.

### Dünya

**9 iyun 1870** - Görkəmli ingilis yazıçısı Çarlz Dikkens (Charles John Huffam Dickens; 7.2.1812-1870) vəfat edib. Əsərləri: "Oliver Tvistin macəraları", "Devid Kopperfild" və s.

**9 iyun 1891** – Amerika bəstəkarı, çoxsaylı müzikllər müəllifi Koul Porter (Cole Porter; 1891-1964) anadan olub.

**10 iyun 1819** – Fransız rəssamı Jan Dezire Qustav Kurbe (Jean-Desire-Gustave Courbet; 1819-1877) anadan olub.

**10 iyun 1915** – Yəhudi əsilli Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1976) laureatı Sol (Solomon) Bellou (Saul Bellow; 1915-2005) anadan olub. Əsərləri: "Yerlə göy arasında", "Qurban", "Yağışlar hökmdarı Henderson", "Hersoq", "Oğru" və s.

**10 iyun 1929** – Rus müğənnisi, SSRİ-nin, Rusiyanın və Azərbaycanın Xalq artisti Lyudmila Georgiyevna Zıkina (1929-2009) anadan olub.

**10 iyun 2008** – Dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatov (12.12.1928 - 2008) vəfat edib. "Cəmilə", "Əlvida, Gülsarı!", "Ağ gəmi", "Əsrə bərabər gün", "Edam kötüyü", "Dağlar düşəndə" və s. əsərlərin müəllifidir.

**11 iyun 1864** – Alman bəstəkarı, dirijor Rixard Ştraus (Richard Strauss; 1864-1949) anadan olub.

**11 iyun 1899** – Yapon yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1968) Yasunari Kavabata (1899-1972) anadan olub. "Dağın naləsi", "Köhnə paytaxt" romanlarının müəllifidir.

**11 iyun 1910** – Fransız dəniz səyyahı, fotoqraf, ixtiraçı Jak İv Kusto (Jacques-Yves Cousteau; 1910-1997) anadan olub.

**12 iyun 1921** – İspan rejissoru Luis Qarsia Berlanqa (Luis Garcia Berlanga Marti; 1921-2010) anadan olub. Satirik kinonun görkəmli nümunələri olan "Xoş gəlmisiniz, cənab Marşal", "Plasido", "Cəllad" və s. filmləri çəkib.

**13 iyun 1865** – İrland şairi və dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı (1923) laureatı Vilyam Yits (William Butler Yeats; 1865-1939) anadan olub.

**Hazırladı: V.Orxan**

# "Qarabağ müharibədən sonra"
## fransız fotoqrafın obyektivində

### Avropa Parlamentində sərgi açılıb...



əvvəli səh. 1-də

İyunun 6-da Avropa Parlamenti binasında açılan sərgi Avropa Parlamenti – Azərbaycan qrupunun rəhbəri Andris Ameriksin dəstəyi ilə ərsəyə gəlib. Açılış mərasimində çıxış edən A.Ameriks bu fotoşəkillərin müharibənin yaratdığı dağıntıların və ağrıların kədərini əks etdirdiyini və dərin məna daşıdığını deyib. O, müəllifin Qarabağda baş verənləri hiss etdirmək üçün düzgün kadrlar seçmək bacarığını vurğulayıb. Qarabağın Azərbaycan xalqının birlik simvolu olduğu və bu yerlərin tezliklə bərpa olunacağına, sakinlərin evlərinə qayıdacağına əminlik ifadə edilib.

Azərbaycanın Belçikadakı səfiri Vaqif Sadıqov Andris Ameriksə sərginin keçirilməsinə verdiyi dəstəyə görə və Qreqori Herpenə Azərbaycanı müxtəlif ölkələrdəki layihələrdə təmsil etdiyi üçün təşəkkür edib. Diplomat ölkəmizin Cənubi Qafqazda sülh və barışığa yönəlmiş siyasəti, eyni zamanda Ermənistanın otuz il ərzində Azərbaycana qarşı yürütdüyü işğal və etnik təmizləmə siyasəti, tarixi, mədəni və dini irsimizə qarşı talan və dağıntılar haqqında məlumat verib.



Bir çox ölkələrdə təşkil etdiyi humanist fotolayihələrinə görə mükafatlar almış Qreqori Herpe çıxışında Qarabağda ilk dəfə 2021-ci ildə olduğunu, əraziləri tamamilə dağıdılmış və talan olunmuş şəkildə gördüyünü bildirib. 2022-ci ildəki səfər zamanı isə Azərbaycan dövlətinin qısa bir zamanda azad olunmuş doğma torpaqlarda apardığı bərpa-quruculuq işlərindən heyrətləndiyini qeyd edib.

Fotoqraf layihənin ərsəyə gəlməsinə görə deputat Andris Ameriksə və Azərbaycan tərəfinə təşəkkür edib.

Sərginin açılışında Avropa Parlamentinin, diplomatik korpusun, kütləvi informasiya vasitələrinin, Avropada yaşayan diasporumuzun nümayəndələri və Belçikada təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.

# Drezdendə ölkəmizə həsr olunmuş sərgi

Almaniyanın Drezden şəhərində "Heydər Əliyev İli" çərçivəsində Azərbaycana həsr olunmuş fotosərgi açılıb.

"İpək yolu Azərbaycan" ("Seidenstrasse-Aserbaidschan") cəmiyyətinin təşkilatçılığı, ölkəmizin Almaniyadakı səfirliyinin, Drezdendəki "House of Resources" təşkilatının və Ukrayna Evinin birgə dəstəyi ilə keçirilən sərgidə Azərbaycan rəssamlarının əsərlərinin reproduksiyaları, ölkəmizin əsrarəngiz təbiətini, tarixi, mədəni, dini irsini və adət-ənənələrini əks etdirən fotoşəkillər nümayiş olunub.



Cəmiyyətin həmsədrləri Alsein Babayev və Yuliana Şneyderman qonaqlara Heydər Əliyevin mədəniyyət və incəsənətə həssas münasibəti, qədim tarixə və zəngin mədəniyyətə malik Azərbaycanın dinamik inkişafı, ölkəmizdə mövcud olan multikulturalizm və tolerantlıq mühiti barədə məlumat veriblər. Azərbaycan rəssamlıq məktəbinin korifey sənətkarları Səttar Bəhlulzadə, Toğrul Nərimanbəyov, Böyükağa Mirzəzadə, müasir dövrün tanınmış rəssamları Sakit Məmmədov, Altay Sadıqzadə və digərlərinin yaradıcılığına diqqət cəlb edilib.

Tədbir zamanı ölkəmiz haqqında sənədli filmlərdən fraqmentlər nümayiş etdirilib və bəstəkar Üzeyir Hacıbəylinin Nizami Gəncəvinin qəzəlinə yazdığı "Sevgili canan" romansı ifa olunub.

Sərgi bir ay davam edəcək.

# Məşhur muzeylərdəki qeyri-leqal artefaktlar sahiblərinə qaytarılır

### Avropada və ABŞ-də yüzlərlə belə sənət əsəri var...

Nyu-Yorkdakı Metropoliten Muzeyi, Parisdəki Luvr Muzeyi və dünyanın digər məşhur muzeylərində nümayiş olunan qiymətli artefaktların bir hissəsi qeyri-leqal, yəni müxtəlif dövrlərdə məxsus olduğu ölkələrdən qanunsuz şəkildə çıxarılan sənət nümunələridir.

Frans-Press agentliyi xəbər verir ki, Metropoliten Muzeyi Asiya, Avropa və Afrikanın ondan çox ölkəsinə məxsus olan əsərləri təhvil vermək məcburiyyətində qalan əsas qurumlar və kolleksiyaçılar arasında liderdir. Oğurlanmış sənət əsərləri üzrə ixtisaslaşan məhkəmə arxeoloqu və sənət tarixçisi Kristos Tsiroqiannis bildirib ki, bu cür hallarla bağlı həbslərin və repatriasiyaların miqyası da artır. Onun sözlərinə görə, Nyu-York qədim əşyaların qeyri-qanuni dövriyyəsi üzrə dünyanın mərkəzi şəhərlərindən biridir.

2017-ci ildən bəri Nyu-York prokurorları 1970-1990-cı illər arasında təxminən 20 ölkədən talan edilmiş artefaktları məxsus olduğu ölkələrə qaytarıblar. Onların arasında qədim Yunanıstan, Roma və Bizans imperiyaları dövrünə aid, eləcə də İraq, Çin, Hindistan və Cənub-Şərqi Asiyadan incəsənət əsərləri var. 2022-ci ilin yanvarında Kamboca, Pakistan, Misir, Türkiyə və İtaliya da daxil olmaqla 165 bir neçə ölkəyə ümumilikdə 165 milyon dollar dəyərində 950-dən çox artefakt qaytarılıb. Bu yaxınlarda isə Nyu-Yorkdakı Çin konsulluğunda keçirilən mərasimdə VII əsrə aid 3,5 milyon dollar dəyərində iki daş heykəl bu ölkəyə təhvil verilib. Ən son restitusiya Körfəz müharibəsi zamanı oğurlanmış və 1990-cı illərin sonunda Nyu-Yorka qaçaqmalçılıq yolu ilə gətirilmiş Şumer sivilizasiyasına aid əhəngdaşından fil və alebastrdan öküz fiqurlarının bu il mayın 19-da İraqa qaytarılması olub.

Luvr muzeyinin rəhbəri Laurens des Kars may ayında Nyu-Yorka səfəri zamanı bildirib ki, böyük muzeylər öz kolleksiyalarının tarixini bilməlidir. Onun sözlərinə görə, qaçaqmalçılıq yolu ilə Avropa və ABŞ-nin muzeylərinə gətirilən artefaktlar tez və ya gec öz sahiblərinə qaytarılacaq. Bu sənət əsərlərinin sayı isə minə yaxındır.




Olaylar, faktlar (9–12 iyun)

### 535 il əvvəl...

**9 iyun 1488-ci ildə** Şahdağ ətəyində Şirvanşahların birləşmiş qüvvələri ilə Qızılbaş (Səfəvi) qoşunları arasında döyüş olub. Döyüşdə Şirvanşahların qoşunları qalib gəlib, qızılbaşların rəhbəri Şeyx Heydər həlak olub. Bir neçə ildən sonra onun oğlu İsmayıl taxta çıxdı və qüdrətli Azərbaycan Səfəvi dövlətinin əsasını qoydu.

### 217 il əvvəl...

**12 iyun 1806-cı ildə** Şuşa yaxınlığındakı Xanbağında Qarabağ xanı İbrahimxəlil xan Cavanşir ailə üzvləri və yaxınları ilə birlikdə rus hərbçiləri tərəfindən qətlə yetirilib. Mayor Lisaneviçin dəstəsi xanın çadırlarına basqın edərək ümumilikdə 17 nəfəri öldürüb. Ruslar bir il öncə (14 may 1805-ci il) Qarabağ xanı ilə bağlanan Kürəkçay müqaviləsinə belə "əməl" etdilər.

### 208 il əvvəl...



**9 iyun 1815-ci ildə** Napoleonun süqutundan sonra başlanan (18 sentyabr 1814-cü il) və Avropada yeni geosiyasi mənzərəni müəyyənləşdirən Vyana Konqresi başa çatıb. Konqresin nəticələrinə əsasən, Polşa əraziləri tamamilə (onadək Rusiya və Prussiya arasında bölüşdürülmüşdü) Rusiyaya birləşdirildi, Niderland Krallığı və İsveçrə Konfederasiyası yaradıldı.

### 125 il əvvəl...

**9 iyun 1898-ci ildə** Böyük Britaniya ilə Çin arasında "Syanqan konvensiyası" imzalanıb. Sazişə əsasən, Çin Syanqan (Honkonq) adasını 99 illiyə Britaniyaya icarəyə verib. 1984-cü ildə Londonla Pekin arasında imzalanan bəyannaməyə əsasən, Britaniya 1997-ci il iyunun 30-da adanı Çinə qaytardı. Honkonq azad iqtisadi zona statusu ilə Çinin inzibati ərazisi oldu.

### 103 il əvvəl...

**12 iyun 1920-ci ildə** Panama kanalının açılışı olub. Cənubi və Şimali Amerikanı ayıran kanalın tikintisi hələ XVI əsrdə gündəmə gəlmişdi. 1901-ci ildə Panamanı Kolumbiyanın əlindən alan ABŞ Britaniya ilə birlikdə kanalın tikintisinə başlayıb. 81,6 kilometr uzunluğunda olan kanal yalnız 1990-cı illərdə Panama dövlətinin nəzarətinə verildi.

### 81 il əvvəl...

**10 iyun 1942-ci ildə** alman faşist qoşunları Çexiyanın Liditse qəsəbəsində qətliam həyata keçiriblər. Burada faşist idarəçisinin öldürülməsinə cavab olaraq qəsəbənin bütün kişi əhalisi (172 nəfər) güllələnib. 200-dək qadın və uşaq isə konslagerə göndərilmiş və onların təxminən yarısı da orada öldürülmüşdü. Müharibədən sonra Liditsedə memorial muzey yaradıldı.

### 79 il əvvəl...



**10 iyun 1944-cü ildə** Almaniyanın işğalçı qoşunları Fransanın Oradur-sür-Qlan qəsəbəsində də kütləvi qətliam törədiblər. Qəsəbənin kişi əhalisi güllələnib, qadın, uşaq və qocalar isə kilsəyə yığılaraq partladılıb. Ümumilikdə qəsəbənin 640-dək sakini qətlə yetirilmişdi. Müharibədən sonra qəsəbə bərpa edilmədi və xarabalıqlar açıq səma altında xatirə muzeyinə çevrildi. Yaxınlıqda isə eyniadlı yeni qəsəbə inşa edildi.

### 30 il əvvəl...

**9 iyun 1993-cü ildə** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev ölkə başçısı Əbülfəz Elçibəyin dəvəti ilə Bakıya gəlib. Gəncə hadisələri (4 iyun) ilə iflas etmiş Azərbaycan Xalq Cəbhəsi iqtidarı Heydər Əliyevdən qiyamçı polkovnik Surət Hüseynovla danışıqlar aparmağı və böhranı sahmanlamağı xahiş edib.

Həmin gün Milli Məclis Gəncədəki qiyamda iştirak etmiş şəxslərə amnistiya verilməsi və hadisələrin araşdırılması üçün deputat-istintaq komissiyasının yaradılması haqqında qərarlar qəbul edib.

**Hazırladı: V.Orxan**

# Polad Bülbüloğlu beynəlxalq festivalın mükafatına layiq görülüb



Xalq artisti, bəstəkar və müğənni, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Misirin paytaxtı Qahirədə keçirilən Zərb alətləri və ənənəvi incəsənət üzrə Beynəlxalq Festivalın (International Festival for Drums and Traditional Arts) mükafatına layiq görülüb. Bu barədə ölkəmizin Misirdəki səfirliyindən məlumat verilib.

Misir Mədəniyyət Nazirliyinin təşkil etdiyi və 23 ölkədən sənətçilərin qatıldığı festival iyunun 2-də başa çatıb.

Tədbirin son günü Misirin mədəniyyət naziri N.Əl-Kilaninin iştirakı ilə keçirilən mükafatlandırma mərasimində Polad Bülbüloğlu musiqiçi kimi fəaliyyəti, eləcə də diplomatik işdə çalışması haqqında məlumat verilib, ənənəvi incəsənətin inkişafındakı rolu yüksək dəyərləndirilib.

Festival təşkilatçıları tərəfindən Polad Bülbüloğluna ünvanlanmış mükafat və sertifikat Azərbaycanın Misirdəki səfir Elxan Poluxova təqdim olunub.

Festivalla əlaqədar nəşr edilmiş kitabda P.Bülbüloğlunun həyat və yaradıcılığına həsr edilmiş məqaləyə də yer alıb.

Azərbaycanın incəsənət xadiminə verilən dəyərə və mükafata görə Misir tərəfinə təşəkkürünü bildirən səfir E.Poluxov Polad Bülbüloğlunun ölkəmizin milli musiqi tarixində mühüm rolundan və diplomatik xidmətlərindən söhbət açıb.

Qahirədə ənənəvi olaraq hər il keçirilən festivala dünyanın müxtəlif ölkələrindən musiqi və rəqs qrupları qatılır. Builki tədbirdə Afrika, Avropa, Asiya və Latın Amerikasından qruplar çıxış ediblər.

# Elçinin pyesi Bişkekdə tamaşaya qoyulub

Xalq yazıçısı Elçinin "Qatil" pyesi Bişkekdə tamaşaya qoyulub. İyunun 16-17-də Çingiz Aytmatov adına Qırğızıstan Dövlət Milli Rus Dram Teatrının səhnəsində əsər əsasında hazırlanan ikipərdəli dram təqdim olunacaq.

Yerli medianın yaydığı məlumata görə, tamaşanın quruluşçu rejissoru Nurlan Abdıkadırov, quruluşçu rəssamı Kaliya Tolomuşeva, xoreoqrafı Yevgeni Prokopenkodur.

# Sankt-Peterburqda Azərbaycanla dostluq konserti

Rusiyanın Sankt-Peterburq şəhərindəki "Ledovı" sarayında müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyi, 28 May – Azərbaycanın Müstəqillik Günü və Peterburqun 320 illiyi münasibətilə "Yüzilliklər boyu dostluq" adlı təntənəli qala-konsert keçirilib.



"Sankt-Peterburq və Leninqrad vilayətində Azərbaycan Milli-Mədəni Muxtariyyəti" şəhər ictimai təşkilatının keçirdiyi konserti 10 mindən çox tamaşaçı izləyib. Onların arasında şəhərin qubernatoru Aleksandr Beqlov və Sankt-Peterburq Qanunvericilik Məclisinin sədri Aleksandr Belski də olub.

Tədbir iştirakçılarını ictimai təşkilatın sədri Vaqif Məmişov və Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Vaqif Seyidbəyov salamlayıblar.

Azərbaycandan gələn sənətçilərin, Mariinski Teatrının artistlərinin və Sankt-Peterburqun milli-mədəni birliklərinin yaradıcı kollektivlərinin rəngarəng konsert proqramı böyük maraq doğurub. Proqramda milli rəqslərimiz, kəndirbazların çıxışı da yer alıb. Rusiya Federasiyası Qərb Hərbi Dairəsi üzrə 80-90 yaşlı veteranlardan ibarət xorun çıxışı alqışlarla qarşılanıb.

Qeyd edək ki, konsertdən öncə Sankt-Peterburq qubernatoru Aleksandr Beqlov MDB ölkələrindən veteranlar və blokada dövrünün sakinləri ilə görüşüblər.

Sankt-Peterburq və Leninqrad vilayəti üzrə Azərbaycan diaspor təşkilatının rəhbəri Vaqif Məmişova bayram tədbirinin təşkilində xidmətlərinə görə "Sankt-Peterburqun 320 illiyi" medalı təqdim edilib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az

**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiymәti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**Tiraj:** 5047. **Sifariş:** 1493

**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641